# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib**



3

## "Bölgələrdə məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir"



2

**Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib**

SƏS

№ 208 (7376)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 noyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Geosiyasi maraqlar fonunda HƏSSAS DURUM



9

**Lisey və gimnaziyalar orta məktəblərdən nə ilə fərqlənir?**



12

**Əli Kərimli və İsa Qəmbərdən hərbi parada qarşı qısqanclıq**



14

**"İpoteka haqqında" qanun dəyişildi - hansı yeniliklər olacaq?**



16

**Dünya mətbuatı Zəfərimizin 5-ci paradından nə yazdı?**



5

**Endorfin üçün uzağa getməyin!**



10

# "Bölgələrdə məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir"

## Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib. Prezident İlham Əliyev görüşdə çıxış edib:***

-Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz.

Əlbəttə ki, böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

Bizim bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni, bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir. Yenə də deyirəm, biz bu məsələləri dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll etmişik.



Qaldı ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapsın, burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir.

Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda, o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək.

Bölgələrdə əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda, bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda, yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amili təşkil etməlidir.

Bölgələrdəki ekoloji tarazlıq mütləq qorunmalıdır, ətraf mühitə böyük diqqət göstərilməlidir. Bizim bölgələrimizdə prinsip etibarilə ekologiya ilə bağlı ciddi problemlər yoxdur. Əsas problemlər Bakı şəhərində idi ki, biz bunu uğurla həll edirik. Bakının yeni mənzərəsi bunun əyani sübutudur. Vaxtilə burada ekoloji fəlakət hökm sürürdü. Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu, belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir. Biz köhnəlmiş müəssisələri köçürdük, neftlə çirklənmiş yerləri abadlaşdırdıq, rekultivasiya etdik, parklar saldıq. Qara şəhəri Ağ şəhərə çevirdik. Bölgələrdə isə əlbəttə ki, ekoloji tarazlığın təmin edilməsi üçün, necə deyərlər, başqa üsullar var. Ona görə burada qanunsuz fəaliyyət daha çox ekoloji ziyan vurur, nəinki neft-qaz sənayesi. Ona görə qanunsuz fəaliyyəti məhdudlaşdırmaq, aradan qaldırmaq üçün mənim tərəfimdən müvafiq göstərişlər verildi, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ki, burada çayların məcralarının dəyişdirilməsi, tikinti üçün lazım olan qanunsuz malların işlənməsi, istehsalı - bütün bunlar tənzimlənməlidir və qanunsuz fəaliyyətə qətiyyən yol verilməməlidir.

Bir sözlə, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Yenə də deyirəm, son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni, bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar. İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni, mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız. Sizə uğurlar arzulayıram. Sağ olun.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov: Möhtərəm cənab Prezident, ilk öncə bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Respublikasının son illərdə bütün regionlarının, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının inkişafında xüsusi mərhələ var. Bu, Sizin xüsusi diqqət və qayğınızın nəticəsidir. Sizi əmin etmək istəyirik və söz veririk ki, bundan sonrakı fəaliyyətimizdə Sizin etimadı doğrultmaq məqsədilə verdiyiniz bütün tapşırıq və göstərişlərinizi vaxtında layiqincə yerinə yetirib bu tapşırıqların icrasını tam təmin edəcəyik.

Prezident İlham Əliyev: Sağ ol.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov: Möhtərəm cənab Prezident, yenidən etimad göstərərək bizi vəzifəyə təyin etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Tam suveren Azərbaycanımızın banisi olaraq Zati-alinizin bütün tapşırıqlarını təyin olunduğumuz vəzifələrimizdə vicdanla, tam məsuliyyətimizlə və ləyaqətlə qeyd-şərtsiz icra edəcəyik. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ ol.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov: Möhtərəm cənab Prezident, göstərdiyiniz böyük etimadı doğruldacağıq, müasir Azərbaycan Respublikasının banisi Ulu Öndərimiz Heydər Əliyevin ideyalarını yaşadacağıq, Sizə və Azərbaycan Respublikasına şərəflə xidmət edəcəyik.

Prezident İlham Əliyev: Sağ ol.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev: Möhtərəm cənab Prezident, əmin etmək istəyirəm ki, göstərdiyiniz böyük etimadı səylə, gücümüz, biliyimiz çərçivəsində tam şəkildə icra edəcəyik və işimizi ləyaqətlə, şərəflə davam etdirəcəyik. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ ol.

Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov: Möhtərəm cənab Prezident, bizə belə yüksək etimad göstərdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm və söz verirəm ki, bu etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ ol.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev: Cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə bir daha təşəkkür edirik. Qarşımıza qoyduğunuz bütün vəzifələri bilik və bacarıqlarımızla yerinə yetirəcəyimizə söz veririk.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elşən Həsənli: Möhtərəm cənab Prezident, bizə göstərdiyiniz böyük etimada görə Sizə minnətdarlığımı bildirirəm. Verdiyiniz bu tapşırıqları və göstərdiyiniz böyük etimadı doğruldacağıma bütün varlığımla söz verirəm. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun. Sizə uğurlar.

# “Ölkəmizdə çox sayda Çin şirkəti fəaliyyət göstərir”



## Prezident İlham Əliyev Çinin "China Datang Corporation Ltd." şirkətinin nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çinin ”China Datang Corporation Ltd.” şirkətinin Direktorlar Şurasının sədri Lü Cünün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ”China Datang Corporation Ltd.” şirkətinin böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əhəmiyyətinə toxunaraq, bunun əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizdə çox sayda Çin şirkətinin fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev Azərbaycanla Çin arasında vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayının artdığını qeyd etdi.

Dövlətimizin başçısı bu il Çinə dövlət və işgüzar səfərlərini xatırladı, həmin səfərlərdən sonra strateji tərəfdaşlıq əlaqələrimizin daha da genişləndiyini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən Lü Cün Bakının inkişafının onlarda xoş təəssürat hissi yaratdığını dedi. Qonaq ölkəmizdə özlərinə qarşı dost münasibəti qeyd etdi. Söhbət zamanı Azərbaycan ilə ”China Datang Corporation Ltd.” şirkəti arasında enerji keçidi, yaşıl enerji və yaşıl sənaye parkı layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib

***Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib. Tədbirdən öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.***













Tədbirin açılışında müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin, həmçinin bir gün öncə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində şəhid olmuş hərbçilərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əvvəlcə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Çıxış edən iştirakçılar bildiriblər ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratmış və onun inkişafına güclü təkan vermişdir. Azərbaycanın müasir tarixində dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunun aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratmışdır. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsaslarını təşkil edən, ölkənin müstəqilliyini hüquqi cəhətdən təsdiqləyən fundamental sənəd kimi tarixə düşmüşdür. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu sənədin hər bir maddəsi onun Azərbaycanın gələcəyi ilə bağlı strateji baxışlarının təcəssümüdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Konstitusiyada təsbit olunan bütün müddəaların təmin olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, İlham Əliyevin 2003-cü ildə ali vəzifəyə seçildiyi dövrdən başlayaraq qarşısına qoyduğu strateji hədəf Ali Qanunumuzun müddəalarının bütün ölkə ərazisində təmininə yönəlmiş, Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etmişdir.



Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 oktyabr 2025-ci il tarixli sərəncamı ilə statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə təltif edilmiş Komitə əməkdaşlarına orden və medallar təqdim olunub. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan - Türkiyə - Pakistan qardaşlığından dünyaya mesaj!

Bugün artıq Azərbaycan, Türkiyə və Pakistan bir-birinə yaxın dost və qardaş ölkələr kimi tarixə düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır. Əgər əvvəllər Azərbaycanla Türkiyə münasibətləri, dostluq və qardaşlıq əlaqələri bütün dünyaya nümunə idisə, bu gün artıq Türkiyə, Pakistan və Azərbaycan arasında formalaşan dostluq və qardaşlıq münasibətləri bütün dünyaya örnəyə çevrilib. Son illərdə həm Türkiyə, həm də Pakistanla Azərbaycanın əlaqələri ən yüksək zirvəyə çatıb. Noyabrın 8-də Azadlıq Meydanında keçirilən hərbi paradda bunun bir daha şahidinə çevrildik. Belə ki, Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz





Şərif paradda iştirak ediblər.

Hər zaman qardaş, dost ölkə olan Türkiyə 44 günlük müharibə dövründə Azərbaycanın yanında oldu, dostluq, birlik nümayiş etdirdi. "Bu gün bizim paradda Əziz qardaşım, Türkiyə Cümhuriyyətinin cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda çıxışı zamanı bildirib. Dövlət başçımız bildirib ki, onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı: "Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!"- deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci ilin iyun ayında Azərbaycana səfəri və Şuşanı ziyarət etməsi çox mühüm tarixi hadisə ilə yadda qalıb. Belə ki, iyunun 15-də burada iki ölkə arasında Şuşa Bəyannaməsi imzalandı. Bəyannamədə bir sıra qarşılıqlı məsələlər, gələcək əməkdaşlığın yol xəritəsi əks olunub. Xüsusilə sənəddə yer alan iki məsələ diqqət çəkir. Bunlardan birincisi odur ki, hər iki ölkə bir-birlərinin təhlükəsizliyinin təminatı üçün BMT Nizamnaməsinə uyğun qarşılıqlı öhdəlik götürdülər. İkincisi isə Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması istiqamətində birgə iş birliyi oldu.

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. 15 iyun 2021-ci il tarixindən başlayaraq Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etdi. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar.

## "BEŞ İL BUNDAN ƏVVƏL ZƏFƏR PARADINDA DA ƏZİZ QARDAŞIM RƏCƏB TAYYİB ƏRDOĞAN BİZİMLƏ BƏRABƏR İDİ"

Bəyannamənin 15 iyun -Milli Qurtuluş Günündə məhz Şuşada imzalanması isə təsadüfi deyildir. 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi ərəfəsində idi. Ümummilli lider Heydər Əliyev çox qısa bir vaxtda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. 28 ildən sonra isə - 2021-ci ilin 15 iyununda Prezident İlham Əliyev Azərbaycanın mədəniyyət paytaxtı, azad Şuşada yeni sənəd imzaladı. Bu, ilk növbədə ərazi bütövlüyü təmin olunmuş müstəqil Azərbaycanın və onun rəhbərinin müstəqil siyasətinin bariz nümunəsidir. Şuşada Türkiyə-Azərbaycan qardaşlığının gələcəkdəki qələbələrinin təməli qoyuldu. Bəyannamədə digər önəmli məsələ Zəngəzur dəhlizinin açılmasının xüsusi qeyd edilməsidir. Təbii ki, Zəngəzur dəhlizinin açılması Vətən müharibəsindəki 44 günlük Zəfərimizin yaratdığı geosiyasi şəraitdir. Bəyannamədə Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəa da yer almışdır. Tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparırlar. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstərirlər."Müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq bizim əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Bu gün bizim Hərbi paradda Türkiyə hərbçilərinin iştirakı birliyimizin növbəti təzahürüdür", - deyə Prezident diqqətə çəkib: "Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi".

"İstəyirəm biləsiniz ki, Qarabağın azadlığa qovuşması təkcə Azərbaycan üçün deyil, Türk dünyası üçün də böyük bir qürur mənbəyidir. Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, istiqlal və şərəf uğrunda tökülən hər damla qan Türk dünyasının tarixində şərəf nişanəsi olaraq ortaq tariximizə qızıl hərflərlə yazılmışdır.

Bu gün burada Azərbaycan əsgəri Türkiyədən gələn əsgər qardaşları ilə çiyin-çiyinə, yan-yanadırlar. Əsgərlərimizə baxdıqca "Bir millət, iki dövlət" şüarının nə demək olduğunu hamımız görə bilirik. Şəhidlərimizin bir-birinə qarışan qanlarının üzərində yüksələn Azadlıq Bayrağı Qarabağın dörd bir yanında şanla, şərəflə, qürurla dalğalanır". Bu fikirləri Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı bildirib.

## "BU GÜN İLK DƏFƏ OLARAQ AZADLIQ MEYDANINDA PAKİSTAN HƏRBÇİLƏRİ DƏ BİZİMLƏ BƏRABƏR İŞTİRAK EDİRLƏR"

Azərbaycanın həm Türkiyə, həm də Pakistanla ikitərəfli əlaqələri xalqlarımızın qardaşlığına, tarixi və mədəni bağlarına, qarşılıqlı hörmət və etimadına əsaslanır. Belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimiz davamlı və hərtərəfli inkişaf, müxtəlif sahələri əhatə edən sıx əməkdaşlıq, qarşılıqlı maraq doğuran məsələlər üzrə beynəlxalq səviyyədə birgə fəaliyyət və dəstəklə səciyyələnib. "Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür", - deyə Prezident bildirib.

Qardaş ölkə Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. 44 günlük Vətən müharibəsində qardaş Türkiyə ilə birlikdə Pakistanın Azərbaycanın yanında olması Azərbaycan-Türkiyə-Pakistan qardaşlığını bütün dünyaya nümayiş etdirdi. İşğaldan azad olunan ərazilərdə bütün şəhər və ölkə boyu Azərbaycanla yanaşı, Türkiyə və Pakistan bayraqlarının olması təəccüblü deyil."Üç qardaş - 2021" beynəlxalq təlimlərinin hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacaq və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəkdir. Bu təlim ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsində müstəsna rol oynayacaq.

## ÖLKƏLƏRARASI ƏMƏKDAŞLIQ PLATFORMASI

Müasir dünyada üçtərəfli Azərbaycan-Türkiyə-Pakistan arası əməkdaşlıq platforması ölkələr arasında münasibətlərin daha da dərinləşməsinə və inkişafına töhfədir. Hər üç ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan Türkiyə və Pakistan əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Hər üç dövlət qardaş və müttəfiq ölkələrdir və dövlətlərarası münasibətlərdə xüsusi rol oynayan dostluq, qardaşlıq münasibətləri strateji tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə müsbət təsirini göstərir. Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş-2021" beynəlxalq təlimi ölkələrin hər bir sahədə əməkdaşlığının davamlı olduğunu və dostluğa və qardaşlığa söykəndiyini göstərmiş oldu. "Üç qardaş - 2021" beynəlxalq təlimlərinin keçirilməsi mövcud dostluğun daha bir ifadəsidir. Həyata keçirilən birgə layihələri, əməkdaşlığı müasir dövlətlər görür və bir mesaj olaraq dünyaya çatdırılır. Hər üç ölkənin hərbi qulluqçuları arasında aparılan geniş təcrübə və fikir mübadiləsi, onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfədir. Bu təlim bütün sahələrdə olduğu kimi dövlətlərin orduları arasında mövcud olan əlaqələrin daha da gücləndirilməsində müstəsna əhəmiyyətə malikdir.

## "PAKİSTAN DÖVLƏTİ VƏ XALQI 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ ZAMANI AZƏRBAYCANA DƏSTƏK VƏ HƏMRƏYLİK GÖSTƏRMİŞDİR"

Dövlətlərarası münasibətlər 44 günlük Vətən müharibəsi dövründə özünü bir daha büruzə vermiş oldu. Türkiyə və Pakistan Azərbaycanın yanında olaraq, Azərbaycanın haqq işinə öz dəstəklərini ifadə etdilər. Dövlətlərin ölkəmizə həm siyasi, həm də mənəvi dəstəkləri yaxın dost və qardaş ölkələr kimi tarixə düşdü və Azərbaycan dostu ilə düşməınini bir daha siyasi proseslərdə görmüş oldu.

"Bu gün ürəyim fəxarət hissi ilə dolur. Çünki mən burada böyük həvəslə və vətənpərvərlik eşqi ilə möhtəşəm hadisəni qeyd edən güclü Azərbaycan xalqını görürəm".

Bu sözləri Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışı zamanı söyləyib.

Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşadığı dövrlərdə beynəlxalq münasibətlərdə Pakistan rəsmilərinin dünya dövlətlərini BMT, İKT kimi nüfuzlu təşkilatlarda Ermənistanı təcavüzkar ölkə kimi tanınmasına çağırması da xüsusi olaraq qeyd etmək yerinə düşər. 2020-ci ilin sentyabrın 27-də Azərbaycana qarşı işğalçı Ermənistanın həyata keçirdiyi hərbi təxribata Pakistanın qardaş Türkiyə ilə birlikdə Azərbaycanın yanında olduğunu bəyan etməsi bu ölkələrin qardaşlığını bütün dünyaya nümayiş etdirdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. Ağrı-acını bizimlə birgə yaşadılar və zəfərimizi də öz Zəfərləri tək qəbul etdilər. "Rakistan dövləti və xalqı 44 günlük vətən müharibəsi zamani azərbaycana dəstək və həmrəylik göstərmişdir".

Bu sözləri Prezident İlham Əliyev Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışı zamanı söyləyib. Dövlətimizin başçısı vurğulayıb: "Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür". Təbii ki, bu və ya digər əlaqələr dövlətlərin əməkdaşlığında daha yeni üfüqlər açır.

*Zümrüd BAYRAMOVA*

# Dünya mətbuatı Zəfərimizin 5-ci paradından nə yazdı?

***Məlum olduğu kimi, noyabr ayının 8-də Bakıda Zəfər Günü münasibəti ilə hərbi parad keçirildi. Paradda qardaş Türkiyə və dost Pakistan dövlətlərinin rəhbər nümayəndələri, yüksək çinli hərbçiləri və hərbi heyəti iştirak etdi. Bir neçə gündür dünya mətbuatının gözü Azərbaycandadır. Parad haqqında fərqli mətbu orqanlarda məqalələr dərc edilir, televiziya verilişlərində sujetlər nümayiş etdirilir. Maraqlıdır, dünya mediası Bakıdan nə yazdı?***

## Anadolu Agentliyi: "Azərbaycan "Zəfər"inin 5-ci ilini qeyd etdi"

Türkiyənin Anadolu Agentliyi Bakıda təşkil olunmuş hərbi parad barədə ətraflı reportaj yayımladı. Ruslan Rəhimovun müəllifi olduğu, foto və videolarla yayımlanan reportajda qeyd edilir ki, möhtəşəm parad 3 ölkənin dostluğunun və qardaşlığının müşaiyəti ilə nümayiş olunub: "Azərbaycan Qarabağ Qələbəsinin 5-ci ildönümünü hərbi paradla qeyd edib. Azərbaycan prezidenti İlham Əliyev, prezident Rəcəb Tayyib Ərdoğan və Pakistanın baş naziri Şahbaz Şərif Azadlıq Meydanında keçirilən mərasimi birlikdə izləyiblər. Mərasim üç ölkənin dövlət himnlərinin səsləndirilməsi və 44 günlük müharibədə şəhid olan əsgərlərin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb."




Agentliyin reportajında bildirilir: "Azərbaycan ordusunun xüsusi əməliyyat bölmələri, dəniz piyadaları, sərhədçilər, daxili təhlükəsizlik bölmələri, Milli Təhlükəsizlik Xidmətinin dəstələri və hərbi məktəbin şagirdləri keçib. İkinci Qarabağ Müharibəsi boyu Türkiyənin dəstəyinin simvolu olaraq Prezident Mühafizəsi Mərasim Birliyinin Komando Batalyonu da paradda iştirak edib. Hər iki ölkənin əsgərləri arasında addımların harmoniyası tamaşaçıların uzun sürən alqışları ilə qarşılanıb. İkinci Qarabağ müharibəsi veteranları da böyük ruh yüksəkliyi ilə meydandan keçiblər. Mərasimdə Pakistan Silahlı Qüvvələrinin bölmələri də iştirak edib. Mərasimdə Azərbaycan ordusunun müasir tankları, zirehli texnikası, uzaqmənzilli raket kompleksləri və artilleriya qurğuları da nümayiş etdirilib."




Hərbi paradda İkinci Qarabağ müharibəsinin gedişatını dəyişdirən pilotsuz uçuş aparatları (PUA), Azərbaycanın inventarında olan Bayraktar TB2 və Akıncı PUA-ların da iştirak etdiyini qeyd edən Agentlik belə yazır: "Xəzər dənizində Bakı sahillərində lövbər salmış hərbi gəmilər və Hərbi Hava Qüvvələrinin təyyarələri də nümayişə qoşularaq Azərbaycan bayrağının rənglərində tüstü buraxıblar. Parad çərçivəsində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus F-16 təyyarələri Bakı səmasında uçuşlar həyata keçirib. Türkiyə, Azərbaycan və Pakistan bayraqları ilə bəzədilmiş Azərbaycan helikopterləri də nümayişə qatılıb".

Reportaj Bakı küçələrində əllərində Azərbaycan və Türkiyə bayraqları tutan minlərlə insan meydanda mərasimi izləməsinin təsviri ilə yekunlaşır: "Vətəndaşlar paradı salamlayaraq "Qarabağ Azərbaycandır", "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndiriblər".

## "Minute Mirror": "Bakıdakı paradda iştirakımız üçtərəfli əlaqələri möhkəmləndirdi"




Pakistanın ingilisdilli gündəlik qəzeti "Minute Mirror" da Bakıdakı parad barədə məqalə dərc edib. Məqalədə deyilir: "Baş nazir Şehbaz Şərif Prezident İlham Əliyevin xüsusi dəvəti ilə Azərbaycanın paytaxtı Bakıda keçirilən Qələbə Günü şənliklərində iştirak edib. Mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və dost ölkələrin hərbi kontingentləri də iştirak edib. Tədbir Azərbaycan, Pakistan və Türkiyə arasında artan əlaqələri vurğulayan əhəmiyyətli bir diplomatik hadisə ilə yadda qalıb. Şənliklər zamanı hər üç ölkənin dövlət himnləri səsləndirilib. Pakistan Ordusunun xüsusi kontingenti də Pakistanın Azərbaycanla həmrəyliyini simvolizə edən Qələbə Günü paradında iştirak edib".

Məqalədə deyilir: "Prezident İlham Əliyev mərasimdə çıxış edərək Azərbaycanın Pakistan və Türkiyədən aldığı dəstəyi yüksək qiymətləndirib. O, hər iki ölkənin çətin anlarda göstərdiyi yardımın həmişə xatırlanacağını vurğulayıb. İlham Əliyev Baş nazir Şehbaz Şərifi və Prezident Ərdoğanı "qardaş" adlandırıb və onların iştirakından məmnunluğunu ifadə edib.

O, həmçinin paradda iştirak edən bütün xarici hərbi kontingentləri salamlayıb, regional əməkdaşlığın və dostluğun vacibliyini vurğulayıb. İlham Əliyev Baş nazir Şərifə Azərbaycanla həmrəylik göstərdiyinə görə təşəkkür edib və üç ölkə arasında əlaqələrin hər il daha da gücləndiyini bir daha vurğulayıb".

## Hürriyət Qəzeti: "Qarabağ türk dünyasının qürurudur"

Türkiyənin tanınmış qəzetlərindən biri olan "Hürriyet" qəzetində də Bakıdakı paradla bağlı geniş məqalə yer alıb. Məqalə belə başlayır: "Prezident Ərdoğan Azərbaycanda keçirilən Qələbə Günü şənliyindəki çıxışında bildirdi: "Qarabağ qələbəmiz münasibətilə təbrik edirəm. 30 illik işğala son qoyan möhtəşəm bir qələbə qazandıq. Qarabağ qələbəsi tarixə şərəf nişanı kimi yazıldı. Qardaşım İlhamın Əliyevin ağıllı rəhbərliyi altında Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi və qəlblərimizdəki 30 illik bir alovu söndürdü. Qələbə Gününün 5-ci ildönümündə sizinlə birlikdə olmaqdan məmnunam. Qardaşım İlham Əliyevin xoş dəvətinə görə minnətdarlığımı bildirirəm. Türkiyədəki qardaşlarınızın salamlarını sizə çatdırıram".

"Qarabağın azad edilməsi təkcə Azərbaycan üçün deyil, həm də Türk dünyası üçün böyük qürur mənbəyidir. Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, müstəqillik və ləyaqət uğrunda tökülən hər damla qan, Türk dünyası tarixində şərəf nişanı kimi ortaq tariximizə qızıl hərflərlə həkk olunub. Bu gün Azərbaycan əsgərləri Türkiyədən olan qardaşları ilə çiyin-çiyinə dayanırlar. Vətən müharibəsi Asiya və Avropadakı geosiyasi tarazlığı da dəyişdirdi. Aramızdakı müstəsna münasibətlər hər gün konkret və strateji layihələr vasitəsilə güclənir. Əsrin Azəri-Çıraq-Günəşli layihəsini, eləcə də Bakı-Tbilisi-Ceyhan Xam Neft Boru Kəməri, Şahdəniz və TANAP-ı xatırlaya bilərsiniz. İğdır-Naxçıvan Təbii Qaz Boru Kəmərinin bu yaxınlarda istifadəyə verilməsi ilə taclı əməkdaşlığımızı daha da möhkəmləndirdik. Transxəzər Şərq-Qərb Mərkəzi Dəhlizini bölgədəki bütün qardaş və bacılarımıza fayda verəcək investisiyalarla inkişaf etdirməliyik".

## Vestikavkaza.ru: "İlham Əliyev: "Biz bu torpaqlarda əbədi yaşayacağıq"

Vestikavkaza.ru yazır ki, 44 günlük Vətən Müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradda Azərbaycan Prezidenti İlham Əliyev həmin müharibənin tarixindən və müharibədən sonrakı işğaldan azad edilmiş ərazilərin dirçəlişindən danışıb. O, xatırladıb ki, 1990-cı illərin əvvəllərində Ermənistan Azərbaycan ərazisinin 20%-ni işğal edib; təxminən bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Onlara qarşı müharibə cinayətləri, Xocalı soyqırımı və etnik təmizləmə siyasəti törədilib. Sülh danışıqları aparılarkən eyni zamanda bəyan etdik ki, əgər onlar uğursuz olarsa, Azərbaycan tarixi, əzəli torpaqlarını hərbi yol da daxil olmaqla, istənilən vasitə ilə azad edəcək. Bu uzun sürən danışıqların nəticəsi sıfır oldu, çünki Ermənistanın Azərbaycan torpaqlarını könüllü olaraq azad etmək niyyəti yox idi. Lakin Bakı ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasında israr etdi".

*Ardı Səh. 6*

# Dünya mətbuatı Zəfərimizin 5-ci paradından nə yazdı?

Əvvəli Səh. 5

Məqalədə daha sonra deyilir: "Biz gücümüzü artırdıq və hər il daha da gücləndik. Beynəlxalq arenada səsimizi ucalda bildik. Bütün beynəlxalq təşkilatlarda ölkəmizin bu münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil etdi. Bir çox qərar və qətnamələr qələbəmizin hüquqi və siyasi əsasını təşkil etdi. Eyni zamanda, ölkə güclü iqtisadiyyat qurmağı bacardı, mahiyyət etibarilə iqtisadi müstəqillik qazandı ki, bu da Azərbaycana siyasi güc verdi. Enerji və nəqliyyat layihələrini uğurla həyata keçirməklə Azərbaycan bir çox ölkələr üçün əvəzolunmaz hala gəldi. Eyni zamanda, ordu quruculuğu Bakı üçün prioritet olaraq qaldı. Biz güclü bir ordu, güclü silahlı qüvvələr yaratdıq. Ordumuzun döyüş hazırlığını artırdıq, onu ən müasir silah və avadanlıqlarla təchiz etdik. Bütün bunlar və daha çox şey şanlı Qələbəyə töhfə verdi".

Məqalədə Prezident İlham əliyevin paraddakı çıxışı geniş şərh edilib: "Ermənistan hətta yeni torpaqlar uğrunda yeni müharibə başladacaqlarını və Azərbaycanı tamamilə işğal edəcəklərini bildiriblər. Tanklarının Bakı küçələrində olacağını deyiblər. Deyiblər ki, Bakıda çay içəcəklər. Əslində, onların arzuları gerçəkləşib. Biz onları gerçəkləşdirdik. Tankları indi Müharibə Qələbəsi Parkında nümayiş etdirilir. Erməni müharibə cinayətkarları bu gün Bakıda məhkəmə qarşısına çıxarılıb və istintaq təcridxanasında Azərbaycan çayı içirlər". Məqalə belə yekunlaşır: "44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhər və kəndi azad edib. 8 noyabrda alınmaz qala hesab edilən Şuşa şəhəri azad edilib. Bir gün sonra - 9-10 noyabr gecəsi İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin üçtərəfli atəşkəs bəyannaməsi imzalayıblar. Ermənistan rəsmi olaraq təslim olub və Təslim Aktını imzalayıblar".










## News.ru: "II Qarabağ müharibəsindəki qələbənin ildönümü münasibətilə Bakıda parad keçirilib"

Rusiyanın bir çox nüfuzlu mətbuat orqanında Bakıdakı hərbi parad barədə məqalə yayımlanıb. News.ru-da yayımlanan məqalədə yazılır: "Parad qələbənin beşinci ildönümünün respublikanın zəfərini simvolizə etdiyini və Azərbaycan xalqının tərəqqi və regional əməkdaşlığı özündə birləşdirən gələcəyə ümidlə baxdığı bir günü təmsil edir, xalqın nümayiş etdirdiyi milli gücün, qətiyyətin və birliyin gələcək nəsillər üçün yol göstəricisi olacağı vurğulanır. Bu gün təkcə qələbəni xatırlamaq üçün deyil, həm də tərəqqi və regional əməkdaşlığı özündə birləşdirən gələcəyə ümidlə baxılan bir gündür".

## Gürcüstan mediası: "Azərbaycan qələbəsinin 5-ci ilini qeyd etdi"

Gürcüstanın 24News.ge xəbər saytı da parad barədə məqalə yayımlayıb. 4 dildə Gürcüstanda fəaliyyət göstərən sayt paradın gedişini əks etdirən bir neçə məqalə dərc edib: "Azərbaycan, Türkiyə və Pakistan liderlərinin iştirakı ilə Bakıda hərbi parad keçirilib" başlıqlı məqalədə bildirilir ki, Bakının Azadlıq meydanında noyabrın 8-də Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verib. Daha sonra Azərbaycan, Türkiyə və Pakistan liderləri çıxışlar ediblər. Hərbi texnikaların keçidi ilə davam edən paradda Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı nümayiş etdirib. Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu olub."

## Business Recorder: "Azərbaycanın Qələbə Günü paradı: "Heç kim suverenliyimizə meydan oxuya bilməz!"

Pakistanın biznes və iqtisadi xəbər portalı olan "Business Recorder" yazır ki, ölkənin baş naziri Məhəmməd Şəhbaz Şərifin Azərbaycana olan son səfəri bir daha təkrarladı ki, Pakistan da, Azərbaycan və Türkiyə qardaşları kimi sülh axtarır. Pakistanlı nazirin parad çərçivəsindəki çıxışından sitatlar verən məqalədə bildirilir: "Şübhə olmasın - heç kimə suverenliyimizə meydan oxumağa və ya ərazi bütövlüyümüzü pozmağa icazə verilə bilməz. Pakistan, Türkiyə və Azərbaycan üç qardaş kimidir və ürəkləri bir-biri ilə döyünür. Biz indi çiyin-çiyinə dayanaraq bu əlamətdar hadisəni qeyd edirik".

Məqalədə yazılır: "İllər keçdikcə güclənən və möhkəm dostluğumuzun parlaq simvolu olan JF-17 Thunder təyyarələrinin gurultusu ilə səma canlanarkən cəsur silahlı qüvvələrimizin Azərbaycan və Türkiyə qardaşları ilə birlikdə irəliləməsini görmək necə də qürurverici və parlaq bir mənzərədir. Əlhəmdulillah, bu, illər keçdikcə güclənən davamlı dostluğumuzun səs-küylü simvoludur. Dünya Azərbaycanın cəsur silahlı qüvvələrinin əzəmətli Qarabağ torpaqlarını azad etməsinin şahidi oldu. Bütün bu azadlıq mübarizəsi boyunca Pakistan qardaş ölkəsi olan Azərbaycanla birlikdə qaya kimi dayandı", - nazir Şehbazın çıxışından belə bir sitat verilib. Baş nazir Azərbaycan Prezidentinin bacarıqlı diplomatiyası vasitəsilə sülh və inkişaf səylərini yüksək qiymətləndirib.

## "Akşam" Qəzeti: "İlham Əliyev Prezident Ərdoğana təşəkkür etdi: Bu dəstəyi heç vaxt unutmayacağıq"

Türkiyənin nüfuzlu "Akşam" qəzeti də 8 noyabrda Bakıda keçirilən hərbi paradla bağlı məqalə dərc edib. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin İkinci Qarabağ müharibəsi zamanı Prezident Ərdoğanın dəstəyindən güc və ruh aldığını söylədiyi yazılır: "İlham Əliyev çıxışında deyir: "Əziz qardaşım Ərdoğan İkinci Qarabağ müharibəsinin ilk saatlarından Azərbaycanı dəstəkləyib. Onun dəstəyi bizə əlavə güc və ruh yüksəkliyi verib. Ərdoğanın "Azərbaycan tək deyil" sözləri bütün dünyaya bir mesaj idi. Azərbaycan xalqı bu dəstəyi heç vaxt unutmayacaq".

Ermənistanın işğalçı siyasətini, Azərbaycan torpaqlarının işğalını və təxminən 1 milyon insanın didərgin salınmasını vurğulayan Əliyev dedi: "Biz heç vaxt işğalı qəbul etməmişik. Sülh danışıqlarında həmişə demişik ki, danışıqlar uğursuz olarsa, torpaqlarımızı müharibə yolu ilə azad edəcəyik. Ermənistanın arxasında duran bəzi dövlətlər onlara iqtisadi, siyasi və hərbi dəstək verirdilər. Onlar qədim torpağımız olan Qarabağı bizdən ayırıb Ermənistana birləşdirmək istəyirdilər."

İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda hərtərəfli yenidənqurma və dirçəliş səyləri həyata keçirdiklərini bildirib və çıxışını belə yekunlaşdırıb: "İndi azad edilmiş torpaqlarda 60 min insan yaşayır. Xalqımı bu nailiyyət münasibətilə təbrik edirəm. Bu beş ili qürurla yaşadıq. Bu torpaqların sahibi olaraq Qarabağa və Şərqi Zəngəzura qayıtdıq. Bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan bayrağı burada əbədi olaraq dalğalanacaq. Qarabağ Azərbaycandır".

## The Express Tribune: "Yaşasın Pakistan-Azərbaycan dostluğu!"

Pakistanın tanınmış ingilisdilli gündəlik qəzetlərindən biri olan Express Tribune yazır: " 2020-ci ildən bəri hər il 8 noyabrda qeyd olunan Qələbə Günü, Ermənistana qarşı 44 günlük Qarabağ Azadlıq Müharibəsində Azərbaycanın uğurlarını qeyd edir. Yaşasın Pakistan-Azərbaycan dostluğu. Pakistan qoşunları və JF-17 Thunder qırıcı təyyarələri Qarabağın azad edilməsini qeyd edən bugünkü Qələbə Paradında iştirak edir.

*Ardı Səh. 7*

# Dünya mətbuatı Zəfərimizin 5-ci paradından nə yazdı?

Əvvəli Səh. 6

Sayt yazır: "Ötən ay təcrübəli hava və quru heyəti ilə birlikdə Pakistan Hərbi Hava Qüvvələrinin (PAF) bir kontingenti birgə hava döyüş təlimində iştirak etmək üçün Azərbaycana gəlib. Nazir Şehbaz günün əvvəlində Prezident İlham Əliyevin dəvəti ilə Azərbaycanın Qələbə Günü şənliklərində iştirak etmək üçün Bakıya gəlib və Prezident Sarayında Azərbaycan Prezidenti İlham Əliyevlə geniş görüş keçirib. Görüşdə Ordu Qərargah rəisi, feldmarşal Seyid Asim Munir də iştirak edib. Danışıqlar ikitərəfli əlaqələrin gücləndirilməsi və müdafiə, ticarət və regional əlaqələr sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini əhatə edib. İki lider siyasət, ticarət və investisiya, enerji, müdafiə və əlaqə kimi sektorlarda çoxşaxəli əməkdaşlığı dərinləşdirmək barədə razılığa gəldilər. Şehbaz həmçinin Prezident İlham Əliyevi ən qısa zamanda Pakistana səfər etməyə dəvət etdi - dəvət Azərbaycan lideri tərəfindən məmnuniyyətlə qəbul edildi".

## BƏƏ mətbuatı: "Bakı ilə güclü tərəfdaşlıq qurmuşuq"

Birləşmiş Ərəb Əmirliklərinin mətbu orqanlarında da noyabrın 8-də Bakıda keçirilən paradla bağlı məlumatlar yayımlanıb. Arabian Radio Network (ARN) media qurumunun rəsmi xəbər platformasında yayımlanan məqalədə deyilir: "Dubayın vəliəhdi Şeyx Həmdan bin Məhəmməd bin Zayed Əl Nəhyanın adından Bakıda keçirilən Qələbə


В Баку прошёл парад, посвящённый 5-летию Победы в Отечественной войне

ОПУБЛИКОВАНО: 19:21, 8 НОЯ 2025 (UTC+3 MSK)




KIBRIS

SONBAHAR SENİN MEVSİMİN
İHTİYAÇLARINIZ İÇİN KREDİ FIRSATLARI, CREDITWEST'TE HIZLI VE KOLAY BAŞVURU İMKANIYLA SİZLERİ BEKLİYOR.

KKTC RUM BASINI TÜRKİYE DÜNYA EKONOMİ SPOR RÖPORTAJLAR TÜM HABERLER

Dünya

Azerbaycan'ın Karabağ Zaferi'nin üzerinden 5 yıl geçti

8 Kasım 2025, 12:13 yayınlandı

3dk, 34sn | 27

Günü şənliklərində iştirak edib. BƏƏ-nin Baş nazirinin müavini və müdafiə naziri vəzifələrini də icra edən Şeyx Həmdan tədbiri qeyd etmək üçün sosial media hesablarında paylaşım edib. O, BƏƏ liderlərinin salamlarını Prezident İlham Əliyevə çatdırıb və BƏƏ-Azərbaycan münasibətlərinin birdən çox sektorda sürətlə genişlənməsindən məmnun olduğunu bildirib. O, bunun hər iki ölkənin inkişafa, sabitliyə və rifaha təkan verən güclü beynəlxalq tərəfdaşlıq qurmaq öhdəliyini əks etdirdiyini bildirib".

## A Haber: "Qarabağ Qələbəsinin 5-ci ildönümünü qeyd edən fotolar!"

Türkiyənin www.ahaber.com.tr saytında da Azərbaycanın Ermənistan işğalına son qoyan İkinci Qarabağ müharibəsinin 5-ci ildönümünü paytaxt Bakıda hərbi paradla qeyd etməsi barədə geniş məqalə yayımlayıb. Yazıda qeyd edilir ki, paradda türk əsgərləri, Bayraktar TB-2, AKINCI Silahlı Pilotsuz Uçuş Aparatı (PUA), EREN raket sistemi, TRG-300 Kasırga reaktiv yaylım atəş sistemi və 6 ədəd F-16 döyüş təyyarəsi də iştirak edib.

Məqalədə deyilir: " Azadlıq meydanında keçirilən mərasimdə Azərbaycan prezidenti İlham Əliyev, prezident Rəcəb Tayyib Ərdoğan və Pakistanın baş naziri Şahbaz Şərif iştirak ediblər. Mərasim üç ölkənin dövlət himnlərinin oxunması ilə başlayıb, ardınca 44 günlük müharibədə şəhid olan əsgərlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. 44 günlük müharibədə istifadə edilən müasir hərbi texnika və zirehli texnikalar da nümayiş etdirilib. "Hero-120" və "SkyStriker Block 4" Taktik Hərəkət Sursatlarının təqdimatı keçirilib, həmçinin beşinci nəsil "IceBreaker" qanadlı raket kompleksi nümayiş etdirilib. Paradda Xəzər dənizində lövbər salmış hərbi gəmilər də iştirak edib, Hərbi Hava Qüvvələrinə məxsus təyyarələr isə Azərbaycan bayrağının rəngləri ilə parad meydançasında tüstü izi buraxıb".

Türkiyəni Prezident Mühafizə Alayının Komando Batalyonu, Bayraktar TB-2, AKINCI Silahlı Pilotsuz Uçuş Aparatı (PUA), EREN raket sistemi, TRG-300 Kasırga reaktiv yaylım atəş sistemi və 6 ədəd F-16 döyüş təyyarəsi təmsil edib. Pakistan-Çin birgə istehsalı olan JF-17 döyüş təyyarələrinin nümayiş etdirildiyi mərasimdə Pakistan Silahlı Qüvvələrinin bölmələri də iştirak edib. Mərasimdə İkinci Qarabağ müharibəsinin gedişatını dəyişdirən Azərbaycan inventarında olan pilotsuz uçuş aparatları (PUA) Bayraktar TB2 və Akıncı PUA-ları da iştirak edib".

Daha sonra məqalədə Azərbaycan ordusunun Qarabağı erməni işğalından azad etmək üçün 44 günlük müharibə barədə yazılıb: "44 gün davam edən və noyabrın 10-da başa çatan əməliyyatlarda 5 şəhər mərkəzi, 4 qəsəbə, 286 kənd erməni işğalından azad edilib. Azərbaycanla Ermənistan arasında müharibə Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra başa çatıb. Ermənistan noyabrın 10-da işğal olunmuş Ağdam, Laçın və Kəlbəcər vilayətlərinin boşaldılmasını öhdəsinə götürən müqavilə imzalayıb. Azərbaycan prezidenti İlham Əliyev bundan əvvəl Mustafa Kamal Atatürkün vəfatı ildönümünə təsadüf etdiyi üçün noyabrın 10-na təyin edilmiş Zəfər Bayramının tarixini dəyişdirmişdi. İlham Əliyevin qərarı ilə Qələbə günü noyabrın 8-i Şuşanın işğaldan azad olunduğu günə köçürülüb".

## Yeni Şafak: "Azərbaycan Qarabağ qələbəsinin beşinci ildönümünü paradla qeyd edir"

Türkiyənin Yeni Şafak portalında yayımlanmış "Azərbaycan Qarabağ qələbəsinin beşinci ildönümünü paradla qeyd edir" başlıqlı məqalədə də 8 noyabrda Bakıda təşkil olunmuş hərbi parad barədə yazılıb. Məqalədə yazılır: "Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsinin beşinci ildönümünü qeyd etmək üçün Bakıda hərbi parada sədrlik etdi. Xatirə tədbirləri zamanı Əliyev vurğuladı ki, onilliklər boyu davam edən strateji hazırlıq, iqtisadi inkişaf və hərbi potensialın artırılması nəticədə Azərbaycana təxminən otuz ildir Ermənistanın işğalı altında olan əraziləri geri qaytarmağa imkan verdi. Azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri vurğulandı".

Sayt yazır: "Azərbaycan lideri Qarabağ və Şərqi Zəngəzurda əhəmiyyətli yenidənqurma nailiyyətlərini qeyd edərək, təxminən 60.000 vətəndaşın azad edilmiş ərazilərə qayıtdığını qeyd etdi. Prezident İlham Əliyev qətiyyətlə bəyan etdi ki, "Biz Qarabağa və Şərqi Zəngəzura qanuni sahiblər kimi qayıtmışıq. Azərbaycan bayrağı burada əbədi olaraq dalğalanacaq. Qarabağ Azərbaycandır". Onun bu bəyanatı millətinin həmin ərazilər üzərində suverenliyini möhkəmləndirir. Prezident İlham Əliyev 2020-ci il münaqişəsi zamanı göstərdikləri qətiyyətli dəstəyə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Pakistanın Baş naziri Şehbaz Şərifə xüsusi təşəkkürünü bildirdi. O, xüsusilə Ərdoğanın "Azərbaycan tək deyil" ifadəsini beynəlxalq həmrəyliyi nümayiş etdirən mühüm bir məqam kimi xatırlatdı. Hərbi paradda Türkiyə və Pakistan qoşunlarının iştirakı xüsusilə qeyd olundu və bu, üç xalq arasında strateji hərbi əməkdaşlığı simvolizə etdi".

## Kıbrıs Qəzeti: "Bu, tarixi bir qələbə idi"

Bakıda keçirilən əzəmətli hərbi parad barədə "Kıbrıs Qəzeti" yazır: "Azərbaycan ordusunun təxminən 30 ildir Ermənistanın işğalı altında olan Qarabağı və ətraf rayonları azad etməsindən beş il ötür. İkinci Qarabağ müharibəsində Azərbaycan işğal olunmuş ərazilərini cəmi 44 günə geri aldı, nəsillərin gözləntilərinə son qoydu və tarixi bir qələbə qazandı.

Sovet İttifaqının dağılmasından sonra, təxminən 30 ildir işğal etdiyi ərazilərdən Azərbaycan mülki əhalisinə hücum edən Ermənistan, 27 sentyabr 2020-ci ildə sərhəd kəndlərini ağır silahlarla vuraraq müharibəni alovlandırdı. Prezident İlham Əliyevin əmri ilə Azərbaycan ordusu həmin gün əks-hücuma başladı. Daha sonra "Vətən müharibəsi" adlandırılan əməliyyat 44 gün davam etdi. Beş şəhər, dörd qəsəbə və 286 kənd işğaldan azad edildi. Müharibə zamanı Azərbaycan ordusu 2908 şəhid verdi, erməni hücumları nəticəsində 94 mülki şəxs həyatını itirdi".

Məqalədə daha sonra yazılır: "8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi ilə Ermənistan məğlubiyyətini etiraf etdi və 10 noyabrda Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli bəyannamə imzalandı. Bəyannaməyə uyğun olaraq, Ermənistan ordusu da Ağdam, Kəlbəcər və Laçından geri çəkildi. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ermənistan ordusuna qarşı silahlı pilotsuz uçuş aparatlarından (UCAV) effektiv şəkildə istifadə etdi. UCAV-lar tərəfindən çoxsaylı erməni silahları və sursatı məhv edildi. UCAV-lardan yayımlanan görüntülər Azərbaycanda mənəvi dəstək oldu və Ermənistan cəbhəsində ağır psixoloji çöküşə səbəb oldu.".

Məqalə belə yekunlaşır: "İkinci Qarabağ müharibəsindən sonra Ermənistan qoşunlarının bir hissəsini geri çəksə də, Qarabağdakı qanunsuz qondarma rejimə ağır silahlar və sursat verməyə davam etdi. Azərbaycandan dəfələrlə edilən çağırışlara baxmayaraq, bu qurum dağılmadı. Bunun ardınca 19 sentyabr 2023-cü ildə Qarabağda konstitusiya qaydasını bərpa etmək üçün antiterror əməliyyatı başladı. Təxminən 24 saat davam edən əməliyyat zamanı qanunsuz silahlı qüvvələr silahlarını yerə qoyub təslim oldular. Beləliklə, Prezident İlham Əliyevin sözləri ilə desək, "Qarabağda Azərbaycanın suverenliyi tam şəkildə bərqərar olub".

Qələbədən sonra Azərbaycan Ermənistana daimi sülh müqaviləsi təklif etdi. Xarici işlər nazirlikləri arasında danışıqlarda əhəmiyyətli irəliləyişlər əldə edildi və tərəflər sülh müqaviləsinin mətni ilə bağlı razılığa gəldilər. Mətn 8 avqustda ABŞ Prezidenti Donald Trampın ev sahibliyi etdiyi üçtərəfli sammitdə paraflanıb. Qarabağ qələbəsi təkcə hərbi qələbə deyil, həm də Cənubi Qafqazda yeni təhlükəsizlik qaydasının yaradılmasına səbəb olan tarixi bir dönüş nöqtəsi kimi qəbul edilir. Azərbaycan hökumətinin fikrincə, bu proses həmçinin regionda davamlı sülh və iqtisadi əməkdaşlığa yol açır".

*Lalə Mehralı*

# Bayraq Günü: Vətənə bağlılıq və milli həmrəylik

***Hər bir xalqın, millətin dövlətçilik rəmzlərindən biri də bayraqdır. Bayraq müqəddəsdir, dövlətin simvoludur. Çox vaxt bayraq xalqların qeyrət rəmzi olaraq qeyd edilir və tanınır. Hərb meydanlarında bayraq uca tutulub, zirvədə dalğalanıb. Xalqımız tarixən bayrağını namusu, qeyrəti, ümumilikdə varlığı bilib, onun uğrunda canından keçməkdən çəkinməyib.***

Müstəqilliyimizin ilk illərindən bu yana Azərbaycan Bayrağının zirvələrdə dalğalanması uğrunda minlərlə Vətən övladı şəhidlik zirvəsinə ucalıb. İgid əsgər və zabitlərimiz cəmi 44 gün ərzində erməni terrorçu dəstələrini məhv edərək, uca bayrağımızın Şuşada, Xankəndidə, Qubadlıda, Kəlbəcərdə, Zəngilanda və digər işğaldan azad edilən ərazilərdə dalğalanmasını təmin edib. Ona görə də şəhid qanına boyanan bayrağımız qürur və varlığımızın rəmzidir. Bu səbəbdən ilin bütün günlərində bayraq günü və bayrağın tarixi ilə bağlı söhbətlər, müzakirələr aparılır. 9 noyabr tarixi isə xüsusi gün hesab olunur. Ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd olunması Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı ilk



**_Eldar İbrahimov_**
**_YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor_**




dəfə 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib. İclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur.

Bugünkü güclü və qüdrətli müasir Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Məlumdur ki, Azərbaycanın ilk müstəqil bayrağı 1918-ci ildə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Gəncə şəhərində qəbul olunub. 24 iyun 1918-ci il tarixində qırmızı rəngli ay və səkkizguşəli ulduzdan ibarət bayraq Azərbaycanın dövlət bayrağı olaraq qəbul edilib. AXC bildirmişdir ki, qəbul edilən bayraq müvəqqəti xarakter daşıyır. Doğrudan da 9 noyabr 1918-ci il tarixində indiki müqəddəs üçrəngli bayrağımız qəbul olundu. Dövlət bayrağının yaradıcısı Əli bəy Hüseynzadədir. Onun türkçülük, müasirlik, islamlaşmaq ideyaları üçrəngli bayrağımızda öz əksini tapıb. Təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay çəkdi. Ancaq 71 il sonra Azərbaycan xalqı tarixi dəyərlərinə, o cümlədən AXC-nin qəbul etdiyi üçrəngli bayrağımıza sahib çıxmağı bacardı. Azərbaycan Xalq Cümhuriyyətinin dəyərləri, qəbul etdiyi bir sıra qanunlar, qaydalar qorunub saxlanılır və inkişaf etdirilir. Hələ ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən Ümummilli Lider Heydər Əliyev AXC-nin üçrəngli Dövlət Bayrağını 1990-cı il noyabrın 17-də keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilməsinə nail olmuşdur. Sonralar Ulu Öndər Heydər Əliyev bu barədə demişdir: "90-cı il noyabrın 17-də biz burada, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik elədiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Yəni bunu biz küçə və meydanda qaldırmadıq, orada bu bayraq qaldırıldı. Amma biz bir dövlət kimi Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxartdıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edib. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, həmçinin Dövlət bayrağını bərpa edib.

Xalqın təkidli tələbəi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra elm, təhsil, mədəniyyət, sosial, iqtisadi, hərbi və digər sahələrin inkişafına göstərdiyi diqqət və qayğı öz müsbət nəticəsini göstərdi. Dəyərlərimizin inkişafı sırasında bayrağa sevgi və hörmət xüsusi önəm daşıyırdı. Ümummilli Lider Heydər Əliyev deyirdi ki, "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir. İndi dünyada müstəqil Azərbaycan dövləti var. Onun milli dövlət bayrağı var, milli himni var, milli gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir".

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirmişdir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin diqqət ayırdığı məsələlərdən biri də dövlət bayrağı olmuşdur. 2004-cü il iyunun 8-də Prezident İlham Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən, Azərbaycan Respublikasının dövlət bayrağına hörmət göstərilməsi ilə bağlı vəzifələr, dövlət bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər, təsvirinin istifadəsi, həmçinin rəsmi tədbirlər zamanı, matəm günlərində və matəm mərasimlərində istifadəsi, digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi, habelə dövlət bayrağının istifadəsinə dair tələblər və məhdudiyyətlər müəyyən edilmişdir. Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!".

Prezident İlham Əliyev onu da qeyd etmişdir ki, "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir".

Azərbaycanın üçrəngli bayrağı həm də, qalibiyyət rəmzidir. Üçrəngli bayrağımızın Xankəndidə, Şuşada, Ağdərədə, Qubadlıda, Kəlbəcərdə, Laçında və digər işğaldan azad edilən ərazilərdə dalğalanması kimlimizin göstəricisi, parlaq gələcəyə olan inamın nümunəsidir. Fateh Sərkərdə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində qazanılan parlaq Qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizə ilk səfərlərində həmin torpaqlarımızda Azərbaycan Bayrağının ucaldılması ilə tarixə yazıldı. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb, tarixi gün münasibəti ilə Azərbaycan xalqını təbrik edərək demişdir: "Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndideyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, biz tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Beləliklə, 9 Noyabr - Bayraq Günü milli birliyin, azad düşüncənin və dövlət müstəqilliyinin təntənəsini ifadə edir. Bu dəyərli tarix gələcək nəsillərə dövlətə sədaqət və Vətənə sevgi hisslərini aşılayan mühüm mənəvi irs kimi yaşayır.

# Geosiyasi maraqlar fonunda
# HƏSSAS DURUM

**Haylar artıq gec də olsa başa düşməlidirlər ki, ölkələri ilə əlaqədar Qərbin təhlükəsizlik zəmanətləri ilə bağlı illüziyaları əsassız, boş və mənasızdır. Başa düşməlidirlər ki, nə zamansa onlara guya ümid verən böyük dövlətlərin öz maraqları var və geosiyasi maraqların mövcudluğu bir reallıqdır. Məhz bu reallıq, daha dəqiq desək, böyük dövlətlərin öz maraqları və geosiyasi maraqlar olduğu halda, Ermənistan kimi kiçik, zəif, çarəsiz bir dövlət, bir ölkə heç bir maraq doğura bilməz. Deməli, başa düşməlidirlər ki, geosiyasi maraqlar fonunda özləri də, ölkələri də həssas durumdadırlar...**



Görünür, hazırda Ermənistan müxalifəti, xüsusən də revanşistlər boş, mənasız pafosla çıxış edərkən, öz ölkəsinin hakimiyyətini qızıldan böyük dağlar vəd etməməkdə qınayarkən bir həqiqəti, ölkələrinin də, özlərinin həssas durumda olduğunu ya başa düşmürlər, ya da başa düşmək istəmirlər. Hər iki halda xatırlatmaq istəyirik ki, haqqında qeyd olunan reallıqları, məhz həssas durumda olduqlarını erməni baş nazir Nikol Paşinyan da, onun hakimiyyət komandası da yaxşı başa düşür və bilir ki, hayların hay-küyü də, boş yerə ümidlər bəsləmələri də tamamilə mənasızdır. Sözsüz ki, bu gün qlobal müstəvidə mövcud geosiyasi maraqların olması fonunda Ermənistan hansısa böyük bir maraq nöqtəsi ola bilməz və bunu, bu reallıqları təkcə hayların başbilənləri yox, elə onların dəyirmanına su tökmək istəyində, arzusunda olan, bunun üçün dəridən-qabıqdan çıxan əcnəbi təəssübkeşləri də etiraf edirlər.

Parisdəki Amerika Universitetinin professoru Holl Qardner açıq şəkildə etiraf edir ki, Ermənistan hazırda böyük dövlətlərin geosiyasi maraqları arasında son dərəcə həssas vəziyyətdə qalıb. O, həmçinin vurğulayır ki, Qərbin təhlükəsizlik zəmanətləri ilə bağlı hayların illüziyaları da tamamilə əsassızdır və cəfəngiyyatdan başqa bir şey deyil. Xüsusən də revanşistlərin uydurduqları, iddia etdikləri hərbi təminatın verilməsi ilə bağlı xəyalların da mənasız olduğunu professor Qardner açıq şəkildə bildirir. "Mən siyasi dairələrdə belə bəyanatlar eşitməmişəm. Ola bilsin ki, akademik dairələrdə belə fikirlər səslənir, lakin onlar real qərarlar səviyyəsinə çatmayıb", deyən Holl Qardner xüsusilə hayların diqqətinə çatdırır ki, Avropada heç kim Ermənistana hərbi təminat verilməsi və ya Avropa Birliyinə dəvət məsələsini ciddi müzakirə etmir. Bax, elə əsl həqiqət budur və bunu başa düşən haylar da, təəssübkeşləri də onların, ölkələrinin hansı həssas durumda olduğunu dərk edirlər.

"Biz nə Amerika qüvvələrinin Ermənistanda yerləşdirilməsi planını, nə də NATO-ya üzvlüklə bağlı real müzakirələri görmürük. Hətta bu gün alyansın genişləndirilməsi ideyası faktiki olaraq gündəmdən belə çıxarılıb", deyən Amerika Universitetinin professoru bununla hayların diqqətini daha ciddi bir məqama yönəltməyə çalışıb. Daha dəqiq desək, o, ermənilərin diqqətinə çatdırmağa çalışıb ki, Qərbin ritorikasına onların ümid etmələri yanlışlıqdır və həmin ritorikaya baxmayaraq, heç kim Ermənistanın təhlükəsizliyinə görə məsuliyyəti öz üzərinə götürməyə nə hazır deyil, nə də hətta bir niyyət belə yoxdur.

Artıq reavnşist düşüncə sahibləri, özlərini müxalifət kimi göstərən qüvvələr, hansısa iddialarda olan, xəyallara, illüziyalara maraqlı olanlar mövcud reallıqları görmək məcburiyyətindədirlər. Ukrayna, Gürcüstan və Moldova kimi region ölkələri də, Ermənistan da öz təhlükəsizliyini təmin etmək üçün ilk növbədə ən real variant olaraq neytrallıq modelini nəzərdən keçirməlidir. Elə məhz Amerika Universitetinin professoru Holl Qardner də bu qənaətdə olduğunu gizlətməyib və təəssübkeşliyi fonunda haylara belə bir neytrallıq modelini təklif edib. Daha dəqiq desək, haylara daha hay-küy salmamaq təklif olunub olun tərəfindən də. "Regiona yanaşma yenidən nəzərdən keçirilməli, Şərqi Avropa və Cənubi Qafqaz da daxil olmaqla yeni tip nüvəsiz neytral zona yaradılmalıdır və məhz bu, gərginliyi azaltmağa kömək edər", deyən Qardner bununla da həssas durumu bir daha xatırladır. Soyuq müharibə dövrünü misal çəkən professor, bir zamanlar Avstriya, Finlandiya və İsveçin sabit və təhlükəsiz qalaraq neytrallığını qoruyub saxlaya bildiklərini nümunə olaraq qeyd edir.

Öz təəssübkeşlərinin tövsiyyələrində belə haylar üçün vurğulanan məqamlar məhz həssas məqamlardır. Əslində, həmin həssas məqamlar, həssas durum xəbərdarlığı da müttəfiqsiz qaldıqlarına bir işarədir. Məhz ermənilərə birbaşa bildirilir və gizlədilmir ki, Ermənistan effektiv müttəfiqsiz qalıb. Bəli, məhz effektiv müttəfiqsiz ifadəsi də tamamilə yerinə düşür. Çünki, ancaq sözdə hansısa müttəfiqlik heç də effektiv müttəfiq demək deyil. Görünən odur ki, bu gün artıq heç də nə zamansa olduğu kimi hansısa dəstəyə haylar qətiyyən ümid edə bilməzlər. Dəfələrlə qeyd olunub ki, hər bir ölkənin öz qayğıları var və Ermənistan dünyanın hansısa böyük ölkəsi üçün də, qlobal müstəvidə geosiyasi maraqlar fonunda diqqət mərkəzində ola bilməz. Yetər ki, bu həqiqəti, bu reallığı haylar özləri də başa düşsünlər. Başa düşsünlər ki, ölkələri geosiyasi maraqlar fonunda çox həssas durumdadır...

Yəqin ki, KTMT kimi tanıdığımız quruma sözün əsl mənasında əl açan haylar gördülər ki, beynəlxalq hüquq belə onların əleyhində oldu. Gördülər ki, xəyallarını gerçəkləşdirmək, uydurmalarını reallaşdırmaq istədikləri zaman da, kömək və dəstək umduqları zaman da əlləri havada qalmış oldu və bunun acısını çox çəkdilər. Bir sözlə, reallıqları qəbul etmədikcə, həssas durumun fərqində olmadıqca, fəlakətlərlə belə üz-üzə qaldıqlarını unutmamalıdırlar. Unutmamalıdırlar ki, Ermənistan bir ölkə olaraq, kimlərinsə maraqlarından çox-çox kənardadır. Görməlidirlər ki, artıq bu ölkə əvvəlki kimi deyil və hayların sığındıqları artıq Ermənistanı çoxdan tərk edib və hətta bəlkə də unudub da. Özü də bu hal birinci dəfə deyil və zaman-zaman haylar beləcə tərk ediliblər və bəlkə də təkcə ötən əsrdə, iyirminci əsrdə dəfələrlə bir kənara atıldıqlarını da unutmayıblar.

Əgər haylar qeyd olunanları ya başa düşmürlərsə, ya da xatırladılanları unudublarsa, daha bir məqamı diqqətə çatdırmaq istərdik ki, Qərbin, Amerikanın regiona baxışı tamamilə, özü də köklü şəkildə dəyişib. Artıq Ermənistanın, ermənilərin arzuları kimləri isə qətiyyən maraqlandırmır və bu barədə düşünən belə yoxdur. Bu vaxta qədər ancaq hansısa dövlətlərə, qüvvələrə arxalanaraq ortaya atılan və bəzən də dilemmalarla çıxış edən ermənilər bilməlidirlər ki, indi vəziyyət heç də gördükləri və alışdıqları kimi deyil. Ola bilsin ki, bir zamanlar alət olmaları ilə kimlərinsə işinə yaraya bilirdilər və buna görə də özlərini vacib və lazımlı hesab edirdilər. Bəlkə də gördükləri dəstəyin fonunda hardasa haqlı görünə də bilərdilər. Amma indi bunu düşünmələri belə mümkün deyil. Çünki böyük dövlətlərə daha alət də lazım olmur və regionda tamamilə fərqli mənzərə və buna görə də fərqli maraqlar yaranıb. Bu mənzərə və maraqlar da haylar üçün daha həssas hesab olunur. Ona görə ki, onların əl-qolu yığılıb və daha öz ayaqları üzərində dayanmalı, dünyanın dəyişikliklərinə adekvat reaksiya göstərməlidirlər. Bu isə hər zaman hansısa dövlətlərin, qüvvələrin kölgəsində olanlar üçün bir qədər çətin görünür. Amma hayların bir daha diqqətinə çatdırmaq istərdik ki, onlar üçün başqa çıxış yolu yoxdur. Çünki həqiqətən də məhz indiki geosiyasi maraqlar fonunda həssas durum göz önündədir...

***İnam Hacıyev***

# Qələbənin 5 illiyi: Müharibə necə qazanıldı və nələr dəyişdi?



**2020-ci il noyabrın 10-da Moskvada imzalanmış üçtərəfli bəyanat faktiki olaraq müharibənin qalibini və məğlubunu təsdiq etdi və Ermənistanın Qarabağ üzərindəki real hakimiyyətinə son qoydu.**

## Ən çətin problemi necə həll etdik?

Qarabağ probleminin həlli dünyada ən çıxılmaz vəziyyət kimi görünürdü. Burada elə bir formul tapmaq mümkün deyildi ki, həm hər iki tərəf razı qalsın, həm beynəlxalq hüquq və ədalət bərqərar olsun. Azərbaycan isə məsələni elə həll etdi ki, həm özünün bütün istəklərini yerinə yetirdi, həm də ermənilərin havadarlarının bütün bəhanələrini əlindən aldı.

Ay yarım davam edən müharibə ərzində Azərbaycan Ordusu inanılmaz qəhrəmanlıq nümayiş etdirdi. Mükəmməl hərbi texnikalara, peşəkar döyüş vərdişlərinə yiyələnmiş ordumuz düzgün planlaşdırılmış döyüş əməliyyat planları nəticəsində Qarabağda fransızların yaratdığı "keçilməz" deyilən müdafiə xəttini darmadağın etdi və sürətlə Ermənistan sərhədlərinə doğru irəliləməyə başladı. Ermənistan ordusu 1 ay ərzində demək olar ki, tam darmadağın edildi. Sonrakı yarım ayı düşmən son mövqelərini ümidsiz müdafiəyə sərf etdi, Şuşa da azad edildikdən sonra ordusu tam darmadağın edilərək sıradan çıxarılmış İrəvan təslimçi razılaşmaya-faktiki kapitulyasiya aktına imza atmağa məcbur oldu. Azərbaycan bütün Qarabağı geri qaytardı- yarısını döyüşlə azad etdi, yarısını isə sülhlə qaytarmağa məcbur oldular.

## Qarabağda nələr dəyişir?

Bu Qələbənin əhəmiyyətini saymaqla bitməz. Qarabağın azad olunmasının ölkəmizə verəcəyi böyük iqtisadi faydalar isə tamam başqa yazının mövzusudur və bu məsələləri əvvəlki yazılarmızda qeyd etmişik.

Hazırda Azərbaycan hökuməti Qarabağda böyük bərpa və quruculuq işlərini davam etdirir. Keçən 5 il ərzində işğal olunmuş ərazilərdə xeyli insfrastruktur layihələri həyata keçirilib, şəhər və kəndlərin bərpasına başlanılıb. Qarabağ böyük bir tikinti meydanına çevrilib. Bir çox xarici dövlətlər və şirkətlər bölgədəki nəhəng layihələrə investisiya qoyur və bu işlərdə iştirak edir.

Zəngəzur nəqliyyat dəhlizinin bərpası işləri də sürətlə davam edir. Bu dəhlizin Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinə qoşulması ilə Azərbaycan böyük bir regionda həm tranzit qovşağına, həm də logistik mərkəzə çevriləcək. Ən əsası ölkəmizin anklavda olan hissəsi- Naxçıvanla birbaşa quru əlaqəsinin yaranması həddən artıq vacib və strateji əhəmiyyətli bir tarixi hadisə olacaq.




## NƏTİCƏ: kim nə qazandı, kim nə itirdi?

Regionda yeni əməkdaşlıq platformasının yaradılmasından bütün regon dövlətləri fayda əldə edəcək. O cümlədən, işğalçı və terrorçu siyasətindən əl çəkərsə, çökməkdə olan Ermənistan d

Region dövlətlərinin qazandıqlarına qısaca nəzər salaq.

1. Rusiyanın qazancı odur ki, Zəngəzur dəhlizinin açılması ilə özünün cənub-qərb sərhədlərindən daha bir nəqliyyat dəhlizi əldə etmiş olur.
2. Türkiyənin qazancı- Naxçıvan ərazisindən Azərbaycanın bütün ərazisinə və Orta Asiyaya birbaşa çıxış əldə edir. Üstəlik, yaxın gələcəkdə regional əməkdaşlıqdan, nəqliyyat dəhlizlərindən xeyli iqtisadi fayda əldə edəcək.
3. İran da regional əməkdaşlıq platformasından xeyli iqtisadi dividentlər əldə edəcək. Sanksiyalar altında və yarımblokada şəraitində qalaraq iqtisadiyyatı zəifləyən ölkə üçün bu çox əlverişli nəfəslikdir.
4. Gürcüstanın əsas qazancı odur ki, Cavaxetiya məsələsi getdi tarixin arxivinə, çünki on smüharibədən hərbi və iqtisadi cəhətdən darmadağın çıxan Ermənistan çox uzun müddət özünə gələ bilməyəcək ki, potensial etnik qarşıdurma ocağını alovlandırıb Gürcüstanda 2-ci Qarabağ yarada bilsin. Amma ölkənin strateji əhəmiyyəti və tranzitdən gəlirləri bir qədər azalacaq. Nəqliyyat dəhlizləri şaxələnəcək, Türkiyə və Azərbaycanın Gürsüstandan asılılğı azalacaq. Bununla belə, regional əməkdaşlıq platformasına qoşulsa daha çox fayda əldə edə bilər.
5. Ermənistan blokada şəraitindən çıxacaq, iqtisadi və ticari imkanları artacaq, regional əməkdaşlıq layihələrindən kənarda qalmayacaq, Zəngəzur dəhlizi vasitəsilə Rusiya, Şərqi Avropa və Orta Asiya ölkələrinə çıxış əldə edəcək. Əhalinin yaşayış səviyyəsi nisbətən yaxşılaşacaq.

## Qələbəni nəyin müqabilində qazandıq?

Bütün bu qələbə, ilk növbədə, Ali Baş Komandanın rəhbərliyi altında Ordumuzun, qəhrəman hərbçilərimizin hesabına əldə olundu. Lakin müharibəni təkcə dövlət, təkcə ordu aparmır. Arxa cəbhədə də müharibə gedirdi. Xalqımız orduya maddi-mənəvi dəstəyi ilə, informasiya müharibəsindəki zəhməti ilə, kibermüharibədəki zərbələri ilə Ermənistanın hərbi, siyasi, iqtisadi, texnoloji cəhətdən çökməsində böyük rol oynadı.

Ali Baş Komandan İlham Əliyevin güclü sərkərdəlik qabiliyyəti, böyük siyasi-diplomatik təcrübəsi, ağıllı iqtisadi strategiyası sayəsində həm döyüş meydanında, həm də siyasi meydanda qələbə əldə olundu.

Beləliklə, çox qısa müddətdə Azərbaycan problemi həll etdi və torpaqlarını qaytararaq ərazi bütövlüyünü bərpa etdi. Bu müharibədə Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz ön cəbhədə, bütün xalqımız da arxa cəbhədə döyüşdü. Xalqla dövlətin birliyi qalib gəldi. Zaman keçəcək və hamı bu Qələbənin tariximizdə ən böyük və ən möhtəşəm Qələbə olduğunu və onun həlelik ortada olmayan strateji faydalarını da görəcək.

Prezidentimizin mükəmməl strateji düşüncəsi sayəsində Qarabağı ən yaxşı variantla, mümkün olan ən minimal itkilərlə azad etdik. Prezidentimizin prosesi ən uyğun beynəlxalq şəraitin yarandığı vaxtda, əvvəlcədən iqtisadi, siyasi-diplomatik və informasiya-təbliğat müharibəsini qazanmaqla başlaması, eyni vaxtda həm müharibəni, həm xarici siyasəti, həm informasiya müharibəsini, həm ölkənin idarə edilməsini mükəmməl aparmaqla arzu etdiyimizdən də böyük nəticəyə daha asan nail olması bunu deməyə əsas verir.

Qələbəni regiona ən böyük təsir imkanı olan Rusiyanı və əksər ölkələri tərəfinə çəkərək qazanan, Qarabağı mümkün olan ən yaxşı şərtlərlə azad edən, milli birliyi təmin edən İlham Əliyev həm böyük dövlət rəhbəri, həm böyük sərkərdə, həm böyük milli lider olduğunu sübut etdi- həm öz adını, həm də 9 noyabrı qızıl hərflərlə tarixə yazdı.

***Elçin Bayramlı***



**MƏTANƏT**

# Endorfin üçün uzağa getməyin!

***Endorfin axtarışında olan insanlar var, bunu hər kəs yaxşı bilir. Həm də bu adamlar əsasən kasıb təbəqənin deyil, varlı təbəqənin nümayəndələridir. Onlar endorfin üçün dünyanın ən yüksək zirvəsinə qalxmağa çalışır, dünyanın ən böyük meşəsində gəzməyi planlaşdırır, dənizin dibinə enib köpəkbalıqları ilə fotolar çəkdirib paylaşmağı qarşısına məqsəd qoyur, buzlaqlara üz tutur, göyün yeddinci qatında olmağa can atır, dünyanın ən bahalı gəlinliyini geyinməyə çalışır, ən bahalı qol saatına sahib olmaq istəyir və sair...***

Bütün bunlar üçün isə, necə deyərlər, elə dünyanın pulunu xərcləyir. Nədir, nədir ki, bir dəqiqə hər hansı yüksəklikdə, dənizin dibində köpəkbalıqları ilə birlikdə olum, buzlaqlarda fotolar çəkdirim, dünyanın ən bahalı paltarını mən geyinim və sair bunun kimi yüzlərlə iddiada olanlar var. Bəs burada məqsəd nədir? Təbii ki, endorfin tapmaq, özünü xoşbəxt hiss etmək...

Lakin həyat göstərir, hətta sübut edir ki, endorfin üçün əslində insan özünə bu qədər əziyyət verməyə də bilər. Hətta həyatını da təhlükə ilə üz-üzə qoymaya bilər. Məsələn, dənizin dibinə qəfəsdə enib köpəkbalığı görmək istəyən adama heç kim zəmanət verə bilməz ki, oradan sağ-salamat çıxacaq. Çünki köpəkbalıqları dəmir qəfəsləri belə bir anda dağıtmaq gücünə malikdirlər. Bu, bir şans məsələsi, alın yazısı ola bilər ki, sən köpəkbalığını görüb, onunla foto çəkdirib və endorfin alıb oradan salamat qurtara biləsən.

Və yaxud da hər hansı yüksəklikdən sağ-salamat aşağıya enməyin, hər hansı buzlaqdan yaşadığın yerə yenidən salamat qayıtmağın özü də müəmmalı məsələdir. Aldığın endorfinlə həyatına davam da edə bilərsən, həmin endorfinlə suyun altına, dünyanın ən yüksək zirvəsinə gömülə, buzlaqda donub buz adam da ola bilərsən.

Digər tərəfdən, dünyanın ən bahalı gəlinliyi, paltarı, qol saatı, düzdür, insana endorfin bəxş edə bilər, lakin onlara bu qədər pul xərcləməyə dəyərmi, bax bunu düşünmək üçün beyin və ürək olmalıdır.

Bütün bunları dərindən analiz edəndən sonra belə bir qənaətə gəlmək olur ki, fərqli maraqlar axtaran, bunun üçün uzaqlara gedən və həyatı üçün təhlükə yaradan adamlar üçün əslində çox yaxınlıqda, həm də təhlükəsiz şəraitdə yüksək endorfin mənbəyi var. Endorfin üçün yol qət etmək, küllü miqdarda pul xərcləməyə gərək yoxdur. Alimlər də təsdiqləyir ki, insan ən çox endorfini xehirxahlıqla alır. Xeyirxah əməllərlə məşğul olmaq, insanlara yardım etmək, onları düşdüyü çətin vəziyyətdən xilas etmək, hər hansı xəstəni ölüm yatağından qurtarmaq, kimə isə yardım etmək xeyirxahlıq, həm də insanların axtarışında olduğu ən yüksək səviyyədə endorfindir.

Xeyirxah olmaq üçünsə böyük ürəyə sahib olmaq lazımdır. Elə bir ürəyə ki, o ürək başqalarına rəhm edə bilsin. O ürək ki, lazımsız, gərəksiz yerlərə xərclənən milyonlarla pulu vacib yerlərə xərcləməyi duya bilsin. Belə insanlar həm də çox uzun ömür sürürlər. Çünki gördükləri hər bir xeyirxah iş onlara davamlı şəkildə endorfin bəxş edir və bunun da sayəsində məmnunluq hissi yaranır, stresdən kənar olur, gördükləri xeyirxah işdən zövq alırlar. Təbii ki, bütün bunlar insanın ömrünü uzadır.

Belə isə xeyirxahlıq etməyi bacaraq. Kimin əlində nə qədər imkan varsa, o imkan çərçivəsində xeyirxahlıq etsin. Xeyirxahlıq endorfin mənbəyidir. Bunun üçün əlbəttə uzağa, təhlükələrə getmək lazım deyil. Sadəcə xeyirxah ol, yetər. Kiminsə həyatını xilas et, kimisə sevindir, həm də endorfin əldə et. Bundan gözəl nə ola bilər ki?..

***P.S. Yazını 13 noyabr Ümumdünya Xeyirxahlıq Günü münasibətilə yazdım. Yazdım ki, xeyirxah olmağa çalışaq və bunun üçün uzaqlara getməyək, ətrafımızda qayğıya ehtiyacı olanlar o qədər var ki...***

# Ticarət sektorundakı problemlər necə həll edilə bilər?

***Son vaxtlar marketlərdə istehlakçı narazılığı kəskin şəkildə artıb. Demək olar ki, hər gün vətəndaşlar müxtəlif şikayətlər səsləndirirlər. Aldadıcı qiymət cədvəlləri, vaxtı keçmiş məhsulların satışı, keyfiyyətsiz və kiflənmiş ərzaqlar, etiket və kassa qiymətləri arasında fərqlər və s bütün bunlar bazar sektorunda ciddi problemlərə işarə edir. Xüsusilə qida təhlükəsizliyi standartlarının pozulması, həm vətəndaşların sağlamlığına, həm də ümumi istehlakçı mədəniyyətinə zərbə vurur. Bəs bu məsələ necə həll edilməlidir? Əvvəlcə vəziyyəti nəzərdən keçirək. Ticarət sektorunda hazırda ciddi problemlər mövcuddur:***

Demək olar ki, sahə tam anarxiya şəraitindədir, nə ictimai nəzarət, nə də bir çox sahibkarların özlərində məsuliyyət və vicdan anlayışı var. Bu sahə tənzimlənmədiyi üçün təklif edirəm ki, Azərbaycanda Ticarət Nazirliyi yaradılsın. Sovet dövründə mövcud olan bu nazirlik bütün ticarət sahəsində qayda-qanunların tətbiqinə, təlimatların icrasına nəzarət edir, keyfiyyətsiz mal satışı və müştərilərin aldadılmasının qarşısını alırdı.



Kadr məsələsi də ciddi problemlərdən biridir. Sovet dövründə mağaza və dükanlarda işləyən satıcılar xüsusi peşə məktəblərində və orta ixtisas texnikumlarında təhsil alır, savadlı satış və peşəkar xidmət mədəniyyətini mənimsəyirdilər. Hazırda isə istənilən şəxs satıcı kimi işə götürülür, satdığı məhsulun xüsusiyyətlərini bilmir, saxlanma şəraitinə nəzarət etmir, düzgün xidmət göstərmir.

Bundan başqa, işçilərin az götürülməsi də ayrı problemdir. Böyük marketlərdə belə satıcı tapmaq müşkül məsələdir. Mağazalarda yalnız kassirlər işləyir, müştərilərə məhsul barədə məlumat verəcək, rəflərə nəzarət edəcək əməkdaş yoxdur.

Bütün bunların nəticəsində müştəri hüquqları müxtəlif istiqamətlərdə pozulur. Saxta və keyfiyyətsiz qida məhsulları satılır, saxlanma temperaturu pozulur, çəkidə və qiymətdə uyğunsuzluqlar olur. Problemləri vətəndaşlar özləri üzə çıxardıqda isə bəzən marketlər yalnız zərəri ödəməklə kifayətlənir, bəzən isə ümumiyyətlə reaksiya vermirlər. Məhkəmə mexanizmi də demək olar ki, işləmir. İnsanlar aldadıldıqda və ya zərər çəkdikdə, xarici ölkələrdə olduğu kimi məhkəməyə müraciət edib təzminat almaq praktikasına sahib deyillər. Bu səbəbdən ticarət sahəsində anarxiya davam edir. Problemin həlli üçün kompleks yanaşma tələb olunur. Buna görə də, Ticarət Nazirliyinin yaradılması, dövlət nəzarəti ilə yanaşı ictimai nəzarətin gücləndirilməsi, müstəqil istehlakçı təşkilatlarının formalaşdırılması və məhkəmə mexanizmlərinin effektiv işləməsi vacibdir. Əks halda, bu sahədə vəziyyət getdikcə daha da kəskinləşəcək.

Problem təkcə mağazalarda deyil, bazarlarda da eyni vəziyyətdir. Bazarlar həmişə adi ticarət şəbəkələrinə nisbətən daha sərfəli və münasib alış-veriş məkanı olub. Qiymət baxımından bazarlarda məhsullar iki, bəzən hətta üç-dörd dəfə daha ucuz olur. Bundan əlavə, bazarlarda seçim imkanı daha genişdir, ölkənin müxtəlif bölgələrindən, kəndlərindən birbaşa gətirilmiş məhsulların müxtəlif növləri təqdim olunur. Lakin son illər market şəbəkələrinin sürətli inkişafı nəticəsində bazarların sayı azalıb, fəaliyyətləri məhdudlaşdırılıb. Bazarların yerləşdiyi ərazilərdə avtomobil saxlamaq üçün yerlərin olmaması da insanların bu məkanlara gəlməsini çətinləşdirir. Nəticədə, bazarlara gedənlərin sayı azalıb.

Digər mühüm səbəblərdən biri isə cəmiyyətdə tənbəlliyin artması, komfort həyat tərzinin güclənməsidir. İnsanlar artıq nəinki bazarlara, hətta marketlərə getməkdənsə, birbaşa onlayn sifariş verməyə üstünlük verirlər. Bir çox hallarda insanlar bir qədər uzaqda yerləşən, daha ucuz mağazaya getmək əvəzinə, qapısının qarşısındakı marketdən ikiqat baha məhsulu almağı rahatlıq hesab edirlər. Hətta yaxınlıqda bazar olan yerlərdə də alıcılar məhsulları marketdən almağa üstünlük verirlər.

Baxmayaraq ki, marketlərdə satılan meyvə-tərəvəzlərin böyük hissəsi genetik dəyişdirilmiş və dərman vasitələri ilə yetişdirilmiş məhsullardır. Onların uzun müddət təzə görünməsi üçün müxtəlif kimyəvi spreylərdən istifadə edilir. Halbuki bazarlarda satılan məhsullar əsasən kənd təsərrüfatçılarının öz həyətlərində, təsərrüfatlarında yetişdirdikləri təbii və təmiz məhsullardır. Təəssüf ki, bu və digər səbəblər bazarların tədricən sıradan çıxmasına gətirib çıxarıb. Bir tərəfdən, market şəbəkələri bazarların fəaliyyətini məhdudlaşdırmağa çalışır, digər tərəfdən isə bazarların infrastruktur problemləri insanların ora üz tutmasını çətinləşdirir. Halbuki dünyanın bir çox ölkələrində bazar və yarmarkalar həm ucuzluq, həm də geniş seçim baxımından ən çox üstünlük verilən ticarət formasıdır. Hətta bəzi ölkələrdə küçə ticarəti belə qanuni şəkildə təşviq edilir. Bizdə isə əksinə, bu fəaliyyətlər məhdudlaşdırılıb, nəticədə alıcılar marketlərə yönəldilib.

Təklif edirəm ki, ölkənin bütün şəhərlərində daimi fəaliyyət göstərən yarmarkalar təşkil edilsin. Bakı şəhərində ən azı 10, digər şəhərlərdə isə 1-2 daimi yarmarka fəaliyyət göstərməlidir. Bu yarmarkalara yalnız öz məhsulunu istehsal edən kəndlilər və fermerlər buraxılmalı, alverçilərə icazə verilməməlidir. Yarmarka iştirakçılarından nə yer pulu, nə də vergi alınmamalıdır.

Bu cür yanaşma həm yerli istehsalçıların gəlirini artırar, həm də ölkədə məhsul bolluğu və ucuzluq yaradar. Eyni zamanda, insanlar daha keyfiyyətli və təbii məhsullara əlçatan olarlar. Belə bir sistemin qurulması həm kənd təsərrüfatının inkişafına, həm də istehlakçıların rifahına xidmət edər. Market şəbəkələrinin deyil, vətəndaşların marağı ön planda tutulmalıdır.

***Elçin Bayramlı***

*Şəhər sakinləri danışdı*

# "Qarabağ" rahatlıqla liqada ilk 24-lüyə düşə bilər"

Tofiq Bəhrəmov adına Respublika Stadionunda keçirilən UEFA Çempionlar Liqasının 4-cü tur oyunu Azərbaycan futbolu üçün tarixi hadisə kimi yadda qaldı. Ölkəmizin təmsilçisi "Qarabağ" İngiltərənin nəhəng klublarından biri olan "Çelsi" ilə 2:2 hesablı bərabərlik əldə edərək futbol tariximizdə ilk dəfə ingilis klubundan xal almağa nail oldu. Bu nəticə həm azarkeşlər, həm də futbol mütəxəssisləri tərəfindən böyük sevinclə qarşılandı. SİA-nın əməkdaşları oyunla bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb.

**Şəhər sakini Heydər Əliyev:** "Qarabağ"ın dünən "Çelsi" ilə oyununu stadiondan canlı izlədim. Özüm də "Qarabağ Ordu Fan Klubu"nun üzvüyəm. Mən düşünürəm ki, "Qarabağ" növbəti 4 görüşdən 7-8 xal toplamağı bacaracaq. Ümid edirəm ki, "Qarabağ" liqa mərhələsində ilk 24-lüyə düşməyi bacaracaq və növbəti mərhələyə adlayacaq. Mən artıq 3 ildir ki, "Qarabağ" azarkeşiyəm. "Ordu Fan Klubu" ilə oyunlara tez-tez gedirəm. Hər oyunda stadionda olmağa və "Qarabağ"a dəstək olmağa çalışıram. Bundan öncəki turda da "Atletik Bilbao" ilə görüşdə xal qazana bilərdik. Lakin Qurban hocanın həmin oyunda Nərimanı start 11-likdə oyuna buraxması və Kamillo Duranı ehtiyatda saxlaması, fikrimcə, düzgün deyildi. Növbəti turda isə İtaliyanın köklü klublarından olan "Napoli" ilə qarşılaşacağıq. Ümid edirəm ki, bu oyunda da yaxşı oynayıb yaxşı nəticə əldə edəcəyik".

**Şəhər sakini Yunis Quliyev:** "İlk öncə hər şeydən əvvəl "Qarabağ"ı təbrik edirəm. Növbəti oyunda "Napoli" güclü rəqibdir - sonuncu İtaliya çempionudur. Lakin onlardan da xal almağı bacaracağıq. Bu oyunda bir az diqqətli olmaq lazımdır. Bir az xəyalları hədəflərdən uzaq tutmaq lazımdır. Ayağımızı yorğanımıza görə uzatmalıyıq. Ona görə də ilk 8-likdənsə, 8-likdən 24-lüyə qədər olan yerlərdə olsaq, daha yaxşı olar. Lakin həmin sıralamada da elə bir mövqe tutmaq lazımdır ki, daha aşağıdan, daha zəif rəqiblərlə birgə pley-offda oynayaq və bundan sonrakı nailiyyətlər bunun ardınca gəlsin. İngiltərə nəhəngindən xal aldıq və bu da, məncə, mükəmməl bir nəticədir. Qurban Qurbanova, bütün dəstəkçilərə, azarkeşlərə və oyunçulara təşəkkür edirəm".

**Şəhər sakini Cavid Məmmədli:** "'Qarabağ"ın bu bərabərliyi çox sevindirici haldır. Hərçənd ki, özüm "Neftçi" azarkeşiyəm. Düzdür, oyuna baxa bilmədim, lakin uzaqdan izləyirdim. Təbii ki, "Çelsi" kimi bir klubdan - Klublararası Dünya Çempionatının qalibi olan, "PSG" kimi bir komandanı 3:0 hesabı ilə məğlub edən bir klubdan 1 xal qazanmaq bizim üçün çox gözəl bir haldır. Klub dəyəri milyard avrodan çox olan bir komandaya qarşı açıq hücum oyunu ilə çıxış edib heç-heçə qalmaq özü böyük bir nailiyyətdir və demək olar ki, 3 xala bərabərdir. Hətta "Qarabağ" ilk hissəni 2:1 hesabı ilə qələbə ilə bitirmişdi. "Napoli" ilə oyuna da bu şəkildə çıxsa, o zaman uğurlu nəticə əldə etmiş olarıq".

**Şəhər sakini Yaşar Abdullayev:** "Dünənki "Qarabağ" - "Çelsi" oyunu mənim üçün çox qürurverici anlardan biri idi. Uzun illərdir Azərbaycan futbolunu izləyirəm, amma bu səviyyədə oyun və bu qədər inamlı çıxış çox nadir hallarda olur. "Qarabağ" komandası meydanda çox intizamlı və ağıllı oynadı. "Çelsi" kimi bir klubdan xal almaq asan məsələ deyil. Komandanın taktiki hazırlığı, azarkeşlərin dəstəyi və futbolçuların inamı oyunun əsas açarı idi. Məncə, bu heç-heçə gələcək oyunlar üçün futbolçulara böyük motivasiya verəcək. Əgər bu cür çıxış davam edərsə, "Qarabağ" rahatlıqla liqada ilk 24-lüyə düşə bilər".

**Şəhər sakini Həsən Hüseynli:** "'Qarabağ"ın "Çelsi" ilə oyununa dostlarla birgə baxdıq. Açığı, oyundan öncə çox həyəcanlı idik, amma komandamız gözlədiyimizdən də



yaxşı oynadı. "Çelsi" Avropanın ən güclü klublarından biridir, amma "Qarabağ" heç nədən çəkinmədən hücuma keçdi. Mən xüsusilə ikinci qol zamanı stadiondakı səsi heç vaxt unutmayacam - hamı ayağa qalxmışdı! Məncə, Qurban Qurbanovun gənc oyunçulara şans verməsi çox doğru qərardır. Növbəti turda "Napoli" ilə oyun çətin olacaq, amma bu ruhla oynasalar, oradan da xal almaq mümkündür".

**Şəhər sakini Səid Məmmədzadə:** "Mən "Qarabağ"ın "Çelsi" ilə oyununa televizordan baxdım, amma elə bil stadionda idim. Hər hücumda ürəyim döyünürdü. Mən tələbəyəm, amma hər oyunda komandamızı izləməyə çalışıram. "Qarabağ"ın oyunu təkcə idman hadisəsi deyil, həm də ölkəmizin imicidir. Düzdür, qalib gələ bilmədik, amma 2:2 hesabı məncə, qələbə qədər dəyərlidir. "Çelsi" kimi komandalardan xal almaq Azərbaycanın futbol tarixində mühüm addımdır. Mən inanıram ki, "Qarabağ" bu tempi qoruyub saxlayacaq və "Napoli" oyunundan da azarkeşləri sevindirəcək nəticə ilə çıxacaq".

***Ziya Hikmətoğlu***

# Lisey və gimnaziyalar orta məktəblərdən nə ilə fərqlənir?

***Son illərdə Azərbaycanda təhsil sistemində baş verən dəyişikliklər, yeni məktəb modellərinin yaranması və keyfiyyətə yönəlmiş yanaşmalar cəmiyyətin diqqətini xüsusilə lisey və gimnaziya tipli təhsil müəssisələrinə yönəldib. Valideynlər arasında "uşağımı liseyə yoxsa adi məktəbə yazdırım?", "gimnaziyada oxumaq nə dərəcədə fərqlidir?" kimi suallar getdikcə daha çox səslənir. Əslində lisey və gimnaziyalar, orta məktəblərlə eyni əsas təhsil proqramını paylaşsalar da, tədris yanaşması, məqsəd və nəticə baxımından mühüm fərqlərə malikdirlər. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



**1. Hüquqi status və məqsəd fərqi**

Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən:

Orta ümumtəhsil məktəbləri - ümumi təhsilin bütün pillələrini (ibtidai, əsas, orta) əhatə edən tədris müəssisəsidir.

Gimnaziya - humanitar, sosial-iqtisadi və ya filoloji istiqamətli dərinləşdirilmiş tədris verən məktəbdir.

Lisey - əsasən texniki, təbiət elmləri və ya innovativ istiqamətlər üzrə ixtisaslaşan orta təhsil müəssisəsidir.

Yəni gimnaziya daha çox humanitar elmlərə, lisey isə riyaziyyat, informatika, fizika, biologiya kimi sahələrə yönəlik bilikləri dərinləşdirir.

**2. Qəbul qaydaları və seçim prosesi**



Adi məktəblərdən fərqli olaraq, lisey və gimnaziyalara qəbul müsabiqə yolu ilə aparılır. Təhsil Nazirliyinin təşkil etdiyi imtahanlarda yüksək nəticə göstərən şagirdlər bu məktəblərə qəbul olunurlar.

Bu isə həmin müəssisələrdə təhsil alanların motivasiya səviyyəsinin yüksək olmasına səbəb olur. Beləliklə, tədris mühiti daha yarış yönümlü və elmi nəticəyə fokuslanmış olur.

**3.Tədris proqramının fərqləri**

Orta məktəblər - Dövlətin müəyyən etdiyi ümumi tədris planı əsasında fəaliyyət göstərir.

Lisey və gimnaziyalar - eyni baza proqramına əsaslansa da, bəzi fənlər üzrə dərinləşdirilmiş kurslar tətbiq edilir.

Məsələn, gimnaziyada dil, ədəbiyyat, tarix, fəlsəfə kimi fənlər daha geniş saatlarla keçirilir; liseydə isə riyaziyyat,



informatika, kimya, fizika kimi sahələrdə laboratoriya və tədqiqat yönümlü dərslər üstünlük təşkil edir.

Bəzi liseylərdə (məsələn, Bakı Mühəndislik Liseyi, Kimya-Biologiya Liseyi) beynəlxalq olimpiadalara hazırlıq və xarici dil kursları da dərs proqramına daxildir.

**4. Müəllim heyəti və tədris mühiti**

Lisey və gimnaziyalarda dərs deyən müəllimlər adətən yüksək ixtisaslı, çox zaman olimpiada və beynəlxalq təlim təcrübəsinə malik mütəxəssislər olur.

Bu məktəblərdə siniflərdə şagird sayı az olur (orta hesabla 20 nəfər), bu da fərdi yanaşmanı asanlaşdırır.

Adi məktəblərdə isə şagird sayı 30-35 nəfərə qədər ola



bilər ki, bu da bəzən müəllimin fərdi potensialı izləməsini çətinləşdirir.

**5. İntizam və məktəb mühiti**

Lisey və gimnaziyalar öz nizam-intizamı və daxili qaydaları ilə də fərqlənir. Dərsə davamiyyət, geyim forması, davranış qaydaları, qiymətləndirmə və sosial fəaliyyətlər ciddi nəzarət altındadır.

Məqsəd yalnız bilik vermək deyil, liderlik, məsuliyyət və tədqiqat bacarığı kimi keyfiyyətlərin formalaşdırılmasıdır.

**6. Şagirdlərin gələcək perspektivləri**

Statistik müşahidələr göstərir ki, lisey və gimnaziya məzunları:

Ali məktəblərə qəbul imtahanlarında daha yüksək nəticələr göstərirlər;

Beynəlxalq proqramlarda (SAT, TOEFL, olimpiadalar və s.) daha aktiv iştirak edirlər;

Xarici universitetlərə qəbul ehtimalları daha yüksək olur.

Orta məktəblərdə təhsil alan şagirdlər də uğurlu ola bilər, lakin bu, daha çox şəxsi motivasiyadan asılı olur.

**7. Azərbaycanda fəaliyyət göstərən nümunəvi lisey və gimnaziyalar**

Bakı Türk Liseyi

Kimya-Biologiya Liseyi

Akademik Zərifə Əliyeva adına lisey

Nəsimi adına Dil və Ədəbiyyat Gimnaziyası

Bakı Avropa Liseyi

Qarabağ Universitetinin nəzdində lisey proqramı (müasir model)

Bu təhsil ocaqları həm milli, həm də beynəlxalq proqramları birləşdirərək keyfiyyət göstəriciləri ilə fərqlənirlər.

**8. Dünyada lisey və gimnaziya modeli**

Dünya təcrübəsində də bu fərqlər qorunur:

Almaniyada gimnaziyalar 6-cı sinifdən başlayaraq ali məktəbə hazırlıq mərhələsi kimi fəaliyyət göstərir;

Fransada "lycee" anlayışı təbiət və humanitar istiqamətlərə ayrılır;

Türkiyədə liseylər orta təhsilin əsas pilləsi hesab olunur və universitetə hazırlıq mərhələsini təşkil edir.

Azərbaycan təhsil modeli bu təcrübələri qismən mənimsəyərək milli sistemə uyğunlaşdırıb.

Tam olaraq bütün liseylərin illik təhsil haqları açıq şəkildə tapılmasa da, araşdırdığım bəzi nümunəvi məktəblər üçün məlum qiymətlər belədir:

Hədəf Liseyi - İbtidai siniflər üçün ~ 8 000 AZN, orta təhsil (V-VIII) üçün də ~ 8 000 AZN kimi müəyyən edilib. Rus bölməsi üçün isə ~ 8 500 AZN.

Kaspi Liseyi - I-IV siniflər üçün ~ 6 400-6 900 AZN, V-IX siniflər üçün ~ 6 900-7 400 AZN, rus bölməsi I-IV ~ 7 900



AZN, V-IX ~ 8 400 AZN.

Bakı Fransız Liseyi - Azərbaycan vətəndaşları üçün bağça ~8 000 AZN, ibtidai ~15 000 AZN, lisey səviyyəsində ~16 100 AZN, 1-12-ci siniflər üzrə ~19 000 AZN.

Lisey və gimnaziyalar sadəcə "ad fərqi" ilə deyil, tədris fəlsəfəsi, seçim prinsipi, motivasiya və nəticə yönümlülüyü ilə orta məktəblərdən ayrılır. Bu məktəblər daha çox istedadlı və motivasiyalı şagirdlər üçün akademik mühit formalaşdırır. Bununla belə, təhsilin keyfiyyəti təkcə məktəbin adına deyil, müəllimin peşəkarlığına, valideyn dəstəyinə və şagirdin öz istəyinə bağlıdır.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Konstitusiyamızın 30 illiyi - hüquqi dövlət quruculuğunun təntənəsi

***Bu il - 2025-ci il noyabrın 12-də müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsindən 30 il ötür. Bu mühüm tarixi hadisə xalqımızın dövlətçilik tarixində dönüş nöqtəsi, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu prosesinin başlanğıcı olmuşdur. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müstəqilliyimizin siyasi-hüquqi əsasını formalaşdırmış, ölkəmizin uzunmüddətli sabit inkişafına etibarlı zəmin yaratmışdır.***

Azərbaycanın konstitusiya tarixi çoxəsrlik dövlətçilik ənənələrimizə, xalqımızın azadlıq və ədalət ideallarına söykənir. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlətin əsas qanununun hazırlanması mümkün olmasa da, milli konstitusiya quruculuğunun ideya təməli həmin dövrdə qoyulmuşdu. Sonrakı illərdə - Azərbaycan SSR dövründə qəbul edilmiş 1921, 1927, 1937 və 1978-ci il konstitusiyaları ölkəmizin siyasi həyatında mühüm mərhələlər olmuşdur. Xüsusilə 1978-ci il Konstitusiyasında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan dili dövlət dilidir" maddəsinin təsbit olunması milli kimliyimizin qorunması baxımından tarixi hadisə idi.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan yeni, müstəqil dövrün tələblərinə cavab verən Konstitusiyanın qəbuluna ehtiyac duyurdu. 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyi təmin edərək, hüquqi dövlət quruculuğu üçün möhkəm zəmin yaratdı. Onun rəhbərliyi ilə Konstitusiya Komissiyası yaradıldı və xalqın iradəsini ifadə edən mükəmməl layihə hazırlandı. 1995-ci il noyabrın 12-də



*Elxan QULİYEV,*
*Əməkdar müəllim*

keçirilmiş referendumda seçicilərin 91,9 faizi bu sənədin lehinə səs verdi. 27 noyabrda isə Konstitusiya qüvvəyə mindi.

Konstitusiyanın qəbulu Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Bu sənəd ölkəmizdə demokratik institutların formalaşmasına, insan hüquq və azadlıqlarının təmin edilməsinə, hakimiyyət bölgüsü prinsipinin tətbiqinə və qanunun aliliyinə əsaslanan yeni dövlət idarəçiliyi modelinin qurulmasına şərait yaratdı.

Konstitusiyanın 48 maddəsi birbaşa insan hüquq və azadlıqlarına həsr edilmişdir. Əsas Qanunumuzda dilindən, dinindən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqları təmin edilmiş, beynəlxalq hüququn prinsipləri ilə uzlaşan mütərəqqi müddəalar təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası müasir hüquqi dövlət meyillərinə əsaslanaraq konstitusiya ədalət mühakiməsi institutunun - Konstitusiya Məhkəməsinin yaradılmasını nəzərdə tutmuşdur. 1998-ci ildən fəaliyyətə başlayan bu orqan konstitusiya nəzarətinin təmin edilməsində mühüm rol oynayır.

Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildiyi gündən bu günə qədər dövlət idarəçiliyinin bütün sahələrində sabitliyin, hüquq qaydasının və ədalətin təminatçısı olmuşdur. Ötən 30 ildə həyata keçirilən islahatlar və reallıqların dəyişməsi nəticəsində Konstitusiyaya üç dəfə - 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklər edilmişdir. Bu dəyişikliklər dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsinə, sosial dövlət prinsiplərinin möhkəmləndirilməsinə xidmət etmişdir. 2016-cı il referendumunda yaradılan Birinci vitse-prezidentlik institutu dövlət idarəetmə modelinə yeni dinamizm gətirmişdir.

Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Konstitusiyasının prinsiplərinə sadiq qalaraq, dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü möhkəmləndirən güclü, ədalətli və hüquqi dövlətə çevrilmişdir. 2020-ci ilin Vətən müharibəsində qazanılmış Qələbə, 2023-cü ildə ərazi bütövlüyümüzün tam bərpası Konstitusiyanın "Azərbaycan Respublikasının ərazi bütövlüyü toxunulmazdır" müddəasının reallığa çevrilməsi deməkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmiş, bununla da Konstitusiyamızın 30 illiyi tarixi Qələbəmizin 5 illiyi ilə eyni dövrdə qeyd olunur. Bu, həm hüquqi dövlət quruculuğunun, həm də milli birliyimizin və azadlığımızın təntənəsidir.

Konstitusiyamızın qəbul edilməsinin 30 illiyi münasibətilə Prezident cənab İlham Əliyevin 10 oktyabr 2025-ci il tarixli Qanunu ilə "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı təsis edilmişdir. Bu medal Konstitusiyanın təkmilləşdirilməsi, hüquqi dövlətin möhkəmləndirilməsi, insan hüquqlarının müdafiəsi və dövlət müstəqilliyinin qorunması sahəsində xüsusi xidmətləri olan şəxslərə təqdim olunur.

Ulu Öndər Heydər Əliyevin sözləri bu gün də aktuallığını qoruyur: "Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən tarixi sənəd olsun." Bu müdrik ideya artıq gerçəkliyə çevrilmişdir - Azərbaycan Respublikası bu gün Konstitusiyasının prinsiplərinə söykənərək, sabitlik, ədalət və milli birliyin təminatçısı olan güclü, suveren dövlətdir.

# 8 Noyabr - Azərbaycanın şanlı Zəfər Günü

***Azərbaycanın müasir tarixində 8 Noyabr - Zəfər Günü milli qürurun, xalq birliyinin, ədalətin və dövlətin gücünün təntənəsidir. Bu gün xalqımızın 30 illik həsrətinə son qoyan, əzəli torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbəni simvolizə edir. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: "Mən işğal dövründə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq."***

1988-ci ildə başlayan erməni təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamış, yüzlərlə şəhər və kənd yerlə-yeksan edilmişdir. İşğal təkcə ərazilərimizin deyil, həm də mədəni irsimizin, iqtisadi potensialımızın məhv edilməsi ilə nəticələnmişdir. Lakin Azərbaycan xalqı bu illər ərzində azadlıq idealına sadiq qaldı, Vətənə bağlılığını və müstəqillik iradəsini qorudu.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil dövlətçilik xətti, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü, sistemli və prinsipial siyasət kimi davam etdirildi. Dövlətin bütün strateji resursları - diplomatik, iqtisadi, hərbi və ideoloji istiqamətlər - Vətən torpaqlarının azadlığı məqsədinə yönəldildi.



*Həsən BAYRAMOV,*
*Pedaqogika üzrə elmlər doktoru, professor*

Güclü ordu quruculuğu, müasir hərbi sənaye kompleksinin yaradılması, beynəlxalq arenada balanslı və fəal siyasət aparılması, eləcə də xalq-ordu birliyinin möhkəmlənməsi bu zəfərin təməlini qoydu.

Azərbaycan Ordusu Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dünyanın ən güclü ordularından birinə çevrildi. Ölkəmiz öz hərbi texnologiyasını istehsal etməyə, ordusunu müasir texnika və silahlarla təchiz etməyə başladı. Azərbaycanın iqtisadi gücü, enerji layihələri, nəqliyyat və logistika infrastrukturu onu regionun lider dövlətinə çevirdi.

2020-ci il 27 sentyabr tarixində Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin "İrəli!" əmri ilə əks-hücum əməliyyatlarına başladı. 44 gün ərzində Ordumuz hər gün irəliləyərək tarixi ədaləti bərpa etdi. "Dəmir yumruq" əməliyyatı nəticəsində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad olundu. Şuşa şəhərinin azad edilməsi isə müharibənin taleyini həll edən əsas mərhələ oldu.

Prezident cənab İlham Əliyev Şuşanın azad edilməsi barədə xalqa müraciətində dedi: "Şuşa-sız bizim işimiz yarımçıq qalardı. Şuşa azaddır! Qarabağ Azərbaycandır!" Bu tarixi sözlər azərbaycanlıların yaddaşında əbədi həkk olundu.

Vətən müharibəsi təkcə döyüş meydanında deyil, diplomatik və informasiya müstəvisində də qazanılmış Zəfər idi. Prezident İlham Əliyev 44 gün ərzində dünya ictimaiyyətinə 30-dan çox beynəlxalq müsahibə verərək Azərbaycanın haqq səsini, müharibənin ədalətli səbəblərini və beynəlxalq hüququn prinsipial mövqeyini dünyaya çatdırdı. Bu dövrdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil" bəyanatı və iki qardaş dövlət arasında imzalanmış Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərini ən yüksək zirvəyə qaldırdı.

Azərbaycan xalqı "Dəmir yumruq" altında birləşərək, etnik və dini fərqlərdən asılı olmayaraq sarsılmaz həmrəylik nümayiş etdirdi. Bu birlik Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin əsasını qoydu.

Vətən müharibəsində Qələbə xalqımızın minlərlə şəhidinin qanı, qazilərimizin fədakarlığı hesabına əldə edildi. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Zəfər" və "Qarabağ" ordenləri, onlarla medallar təsis olundu. 2020-ci il 3 dekabr tarixli Sərəncamla hər il 8 Noyabrın "Zəfər Günü" kimi qeyd edilməsi qərara alındı.

Bakıda inşa edilən Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi, eləcə də Zəfər Parkı bu qəhrəmanlıq tarixinin əbədiləşdirilməsi məqsədi daşıyır. Zəfər Parkında ucaldılan 44 metrlik "Zəfər Tağı" 44 günün simvoluna çevrilib. Hərbi Qənimətlər Parkı isə işğalın acı gerçəkliklərini və Qələbənin dəyərini gələcək nəsillərə çatdıran canlı muzeydir. Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. 2022-ci ildə təsdiqlənmiş "Böyük Qayıdışa dair Dövlət Proqramı" çərçivəsində artıq minlərlə ailə öz doğma yurdlarına qayıdıb. Azad edilmiş ərazilərdə müasir infrastruktur, yollar, məktəblər, xəstəxanalar, hava limanları və sənaye parkları inşa edilir.

Qarabağ və Şərqi Zəngəzurda sosial layihələrin icrası, "DOST" mərkəzlərinin fəaliyyətə başlaması, şəhid ailələri və qazilərin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər dövlətin öz vətəndaşına olan qayğısını göstərir. Prezident İlham Əliyevin dediyi kimi: "Vətən uğrunda canlarını fəda etmiş qəhrəmanlarımızın ailələri dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik." Azərbaycan 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal antiterror əməliyyatı ilə Qarabağda dövlət suverenliyini tam bərpa etdi. 15 oktyabr 2023-cü ildə Prezident cənab İlham Əliyevin Xankəndidə Azərbaycan Bayrağını ucaldaraq dediyi sözlər bu tarixi mərhələnin yekunu idi: "Bu şanlı tarix bizimlə əbədi olacaq."

Prezident İlham Əliyevin 2024-cü il Sərəncamı ilə Dövlət Suverenliyi Günü təsis edilmiş, 2025-ci il isə "Konstitusiya və Suverenlik İli" elan olunmuşdur. Bu qərarlar Azərbaycanın ərazi bütövlüyünün və dövlət müstəqilliyinin dönməzliyinin simvoludur. Zəfər Günü təkcə hərbi Qələbə deyil, həm də milli ruhun, dövlətin gücünün, xalqın birliyinin və ədalətin təntənəsidir. Bu gün bizi sabaha inamla aparan milli həmrəyliyin, lider-xalq birliyinin rəmzidir.

Azərbaycan xalqı bu Zəfəri yaradan qəhrəman oğul və qızları ilə, Müzəffər Ali Baş Komandanı ilə, azad Qarabağ və Zəngəzurla qürur duyur. Tarixi Qələbəmizlə bərpa olunmuş ədalət gələcək nəsillərə azadlıq, müstəqillik və vətən sevgisi dərsi kimi əbədi qalacaq.

# Əli Kərimli və İsa Qəmbərdən hərbi parada qarşı qısqanclıq

*Haqlı deyilib, xəyanətkarın qüruru və şərəfi olmur*

Azərbaycanın gücLü və qüdrətli dövlət olduğu bütün sahələr üzrə əldə etdiyi möhtəşəm uğurları, naliyyətləri ilə təsdiq olunur. Təbii ki, qazanılan qələbələr millətimizin dünya miqyasında hörmətinin daha da yüksəlməsinə, nüfuzunun artmasına yeni təkan verir. Bakıda 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə keçirilən hərbi parad və paradda nümayiş olunan yeni, müasir silahlar, müxtəlif ölkələrin müdafiə nazirlərinin, hərbi nümayəndə heyətlərinin paradda iştirakı Azərbaycanın dünyanın ən qüdrətli dövlətlərindən biri olduğunu təsdiqləyir. Sübut olundu ki, Azərbaycan ordusu bütün regionda sülhün və təhlükəsizliyin zəmanətidir. Paradda Pakistan və Türkiyə ali nümayəndə heyətləri ilə yanaşı Slovakiyanın Baş nazirinin müavini, müdafiə naziri, Səudiyyə Ərəbistanın müdafiə nazirinin müavini, Serbiyanın Baş qərargah rəisi, Qırğızıstanın müdafiə naziri, Qazaxıstanın müdafiə naziri, Özbəkistanın müdafiə nazirinin müavini və digər ölkələrin müxtəlif hərbi heyətlərinin iştirakı ölkəmizə olan yüksək dəyərin, hörmətin nümunəsidir. Xüsusilə də hərbi paradda Türkiyə və Pakistan rəhbərlərinin iştirakı üç ölkə arasında dostluğun və qardaşlığın dönməz və əbədi olduğunu göstərdi.





Paradın keçirildiyi əraziyə yüz minlərlə insan cəmləşmişdir. İnsanlar böyük coşqu və sevinclə 30 illik erməni işğalına son qoyaraq torpaqlarımızın işğalına son qoyan müzəffər ordumuzun hərbi keçidini qürurla izləyirdi. Hər kəsin üzündə təbəssüm, 80 milyonluq dünya azərbaycanlılarının Lideri, Prezidentimiz İlham Əliyevə ünvanlanan alqışları vardı.

### Əli Kərimli və İsa Qəmbər hərbi paraddan bir kəlmə də olsun danışmadılar və yazmadılar

Bakıda 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə keçirilən hərbi parad haqqında dünyanın ən nüfuzlu KİV-ləri reportajlar yayımladılar, xəbərlər paylaşdılar, dünya siyasətində önəmli nüfuza malik siyasətçilər özəl şərhləri verdilər, fikirlərini qeyd etdilər, ancaq necə deyərlər buradan-bura Azərbaycanın AXCP, Müsavat kimi dağıdıcı müxalifət liderləri susmağa üstünlük verdilər. Adətən, ölkəmizin ən ucqar kənd və qəsəbəsində baş verən ən xırda məişət hadisəsinə dərhal reaksiya verən və bununla da həssas olduqlarını nümayiş etdirməyə çalışan Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı və digərləri dünyanı çalxalayan, Ermənistanı vahiməyə salan hərbi parad haqqında bir kəlmə də olsun danışmadılar, fikir bildirmədilər, özlərini lal, kar və kor kimi göstərməyə çalışdılar. Sanki bu məxluqlar ölkəmizdə baş tutan möhtəşəm hərbi paraddan məlumatsızdılar, xəbərdar deyillər. Söz yox ki, hər biri hərbi paradda nümayiş olunan yeni silahlar, qonaqlar barədə geniş məlumatlara malikdilər, TV-lərdən paradı izləyiblər. Sadəcə, dövlətin həyata keçirdiyi siyasətə qarşı kin-küdurətləri, nifrət və qısqanclıq hissləri onların qəlblərini daşa döndərib.

Əslində, xalqdan uzaqdırlar, dövlətə qarşı laqeyddirlər. Onlar üçün başlıca hədəf və məqsəd ölkəmizin imicinə xələl gətirilmək və erməni lobbisinin istəyinin yerinə yetirilməsidir. Bunun adı isə satqınlıq və xəyanətdir. Həmin satqınlar hələ 2020-ci ilin iyulunda Tovuz rayonu erməni terrorçuları tərəfindən intensiv atəşə məruz qalarkən 43 siyasi partiyanın hazırladığı "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar siyasi partiyaların milli həmrəyliyə dair" bəyanatını imzalamaqdan imtina etmişdilər. 44 günlük Vətən Müharibəsi zamanı bir neçə dəfə siyasi partiyalar bir araya gəlib beynəlxalq təşkilatlara Ermənistanın vandal hərəkətləri və dinc sakinlərin raket atəşinə tutulmasına etiraz əlaməti olaraq bəyanatlar , müraciətlər ünvanladıqları zaman Müsavat və AXCP həmin müraciətlərə qoşulmaqdan imtina etdilər. Prezident Adminstrasiyasında siyasi partiyaların rəhbərləri ilə keçirilən görüşlərdə AXCP və Müsavat funksionerləri qatılmadılar.

Hətta siyasi dialoq çağırışlarına da əhəmiyyətsiz yanaşdılar. Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin Rusiya tərəfindən vurulması zamanı da ölkəmizdə fəaliyyət göstərən bütün siyasi partiyalar birgə etiraz bəyanatı yaydıqları zaman AXCP, Müsavat və Milli Şura rəhbərliyi xalqın dərdinə şərik olmaqdan imtina etdilər. Bütün bunlar Əli Kərimlinin, İsa Qəmbərin, Arif Hacılının, Cəmil Həsənlinin şər qüvvələrdən asılı olduqlarını göstərir. Eyni zamnda bu ünsürlər Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın sabiq prezidenti, Ramiz Mehdiyevin dövlətə qəsd planlaşdıran dəstəsinin fəal üzvlərindəndilər.

### Əli Kərimli və İsa Qəmbəri xəyanətə sövq edən səbəblərə yeniləri əlavə olunub

Araşdırmalara əsasən o fikrə gəlmək olar ki, xarici məkrli qüvvələrin Azərbaycanın parlaq qələbəsini həzm edə bilməmələri başa düşüləndir. Çünki onlar birbaşa erməni maraqlarından çıxış edən və daim ermənilərə hərbi, siyasi dəstək göstərən, Azərbaycanın güclənməsini arzu etməyən dairələrdir olublar. Bu gün də öz xislətlərinə uyğun fəaliyyətlərini davam etdirirlər. Lakin dağıdıcı müxalifət funksionerlərinin və onların qazanlarının dibini yalayan trolların fəaliyyətləri anlaşılan deyil. Şübhələr, həm də ehtimallar yaradır ki, bu müxalif məxluqlar birbaşa erməni lobbisindən və Ramiz Mehdiyevin mətbəxtindən təlimat almalarıdır. Xatırlatmaq lazımdır ki, "Milli Şura"nın sədri Cəmil Həsənlinin müsahibələrinin birində "hər ay Soros fondundan 200 ABŞ dollar məvacib almışam" etiraf etmişdir. Söz yox ki, C. Soros nə dəli, nə də ki gic deyil. Soros və digərləri sifarişlərini icra etməyən şəxslərə və ya qruplara qarantlar ayırmaza. Əgər dağıdıcı müxalifət xarici qrantlardan bəhrələnirlərsə, deməli, ortada tərəflər arasında əldə oluna razılaşma var: Yəni dağıdıcı ünsürlərin istəkləri pul qazanmaqdırsa, xarici məkrli dairələrində hədəfləri dünyanın əsas güc mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycana qarşı təzyiq və təhdid siyasətinə nail olmaqdır. AXCP sədri Əli Kərimlinin daha çox qrant əldə etmək arzusu onun gözlərini kor, qulaqlarını kar edib. Bu səbəbdən də ölkəmizdə gedən genişmiqyaslı tikinti, quruculuq, bərpa işlərini görmür, həm də beynəlxalq təşkilatların Azərbaycanın sosial-iqtisadi, maliyyə sahəsində əldə etdiyi nailiyyətlərdən bəhs edən müsbət xarakterli hesabatlarını eşitmək istəmirlər.

Onların ki, ancaq məğzini və mahiyyətini anlamadıqları sifarişləri hansı formadasa yerinə yetirməyə nail olmaqdır. Bəzən onlar üçün fərq etmir, kimin əlinə oynayırlar, hansı qüvvənin tapşırığını yerinə yetirirlər. Dünənə qədər Avropanın müxtəlif dairələrinin sifarişlərini yerinə yetirməyə cəhd edirdilərsə, bu gün artıq Ramiz Mehdiyevin tapşırıqlarının icraçıları rolunda çıxış edirlər. Bu isə onu təsdiq edir ki, Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı və digərləri üçün fərq etmir, başlarının üstündə kimdir və tapşırıqlar hansı yönümlüdür. Əsas odur ki, ağaları var və bu ağaları ilə əməkdaşlıq etməklə özlərinə maliyyə imkanları əldə edirlər. Əminliklə demək olar Ramiz Mehdiyev- dağıdıcı müxalifət iş birliyi uzun çəkməyəcək. Nəhayət, R.Mehdiyev ifşa olunub, həbs edildiyi kimi, Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər və Arif Hacılı da istintaqa cəlb edilməklə, həbs olunacaqlar. Bununla da onların iki və çoxtərəfli oyunları sona çatacaq. Həm də siyasi varlıqlarına son qoyulacaq, oyuncaq partiyaları tarixin arxivinə göndəriləcək.

***İLHAM ƏLİYEV***



*AYDINLIQ GƏTİRİLDİ*

# “Vergi güzəştləri biznes üçün əlverişli şərait yaratdı”

"Azərbaycandakı mövcud vergi siyasətinin həm üstünlükləri, həm də çətinlikləri var. Məsələn, uzun müddət qeyri-neft sektorunda, xüsusilə özəl sektorda gəlir vergisi ləğv olunmuşdu. Bu vəziyyət təxminən 7 il davam etdi - həmin dövrdə gəlir vergisi yox idi". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elçin Rəşidov deyib.

Onun sözlərinə görə, təbii ki, bu, sahibkarlar və işəgötürənlər üçün çox əlverişli bir şərait yaratmışdı. Onlar işçilərə daha yüksək əməkhaqqı təklif edə bilir, daha yaxşı kadrları cəlb edə bilirdilər. Çünki ortada vergi yükü yox idi: "İndi isə bu güzəşt tədricən aradan qaldırılır - yəni gəlir vergisinin mərhələli şəkildə geri qaytarılması prosesi gedir. Hesabatlılıq və şəffaflıq baxımından, yəni institusional yanaşma üçün də faydalıdır? Bəli, demokratiyalarda vergi həm də vətəndaş məsuliyyətinin əsasını təşkil edir. Amma digər tərəfdən, sahibkarlıq mühitinə və biznesin təşviqinə baxanda, verginin olmaması və ya azaldılması o dövrdə çox əlverişli şərait yaratmışdı.



Məsələn, çox gözəl bir məsələdir. Orada dövriyyə həddi var - bu, 12 ay ərzində 200.000 manatla məhdudlaşır. Problem ondadır ki, bu 200.000 manat limiti 2006-cı ildən bəri qüvvədədir və o dövrdə bu, kifayət qədər böyük bir hədd sayılırdı. İki əsas səbəb var: birincisi, o vaxtdan bəri manat bir neçə dəfə inflyasiyaya uğrayıb, dəyərdən düşüb. İkincisi, həmin dövrdən bu günə qədər iqtisadiyyat real qiymətlərlə bir neçə dəfə böyüyüb. 2006-cı il hələ neft gəlirlərinin yeni formalaşdığı bir dövr idi. Ona görə də həmin həddin bu günə qədər dəyişmədən qalması düzgün deyil. Bu limit artırılmalıdır ki, sahibkarlar üçün rahatlıq yaransın. Hazırda bu hədd eyni qalmaqla sahibkarları sıxır, çətinlik yaradır. Daha düzgün olardı ki, Vergi Məcəlləsində belə məbləğlər konkret rəqəmlərlə - məsələn, 200.000 manat kimi - yox, nisbi göstəricilərlə müəyyən edilsin. Məsələn, bu, minimum əməkhaqqının 500 misli və ya yaşayış minimumunun müəyyən qatı kimi ifadə oluna bilərdi. Beləliklə, inflyasiya və iqtisadi artım baş verdikcə həmin hədd də avtomatik olaraq dəyişərdi.

Bu halda limit real iqtisadi göstəricilərə uyğunlaşardı. Əgər bu metod tətbiq olunsaydı, bəlkə də indiki 200.000 manatlıq hədd yerinə 600.000 manat və ya başqa bir uyğun rəqəm olardı və sahibkarlar da daha az çətinliklə üzləşərdi. Bundan əlavə, vergi siyasəti çox sürətlə və tez-tez dəyişir. Bu da təbii olaraq sahibkarlarda müəyyən qeyri-müəyyənliklər yaradır. Yaxşı olardı ki, vergi sistemi mümkün qədər sabit, uzunmüddətli və şəffaf olsun. Çünki sahibkarlar bu sistemə uyğunlaşmağa çalışırlar, onu öyrənirlər, amma qısa müddət sonra yenidən dəyişiklik baş verir. Bu da onların əməliyyatlarında və iş fəaliyyətlərində çətinliklər yaradır. Yaxşı olar ki, belə halların qarşısı alınsın. Bundan əlavə, kölgə iqtisadiyyatının daralması üçün iqtisadiyyatın ölçüsünü artırmaq vacibdir. Bizneslərin kölgədən çıxarılması da iqtisadi siyasətin vəzifəsidir. Hal-hazırda kölgə iqtisadiyyatı yenə də kifayət qədər böyükdür və problem yaradır. Hesab edirəm ki, bu vergi siyasəti və onun icrası kölgə iqtisadiyyatının kiçilməsini hədəfləməli və buna nail olmalıdır. Bu sahədə effektiv bir siyasət yeridilməlidir".

***Günel Fərzəliyeva***

# Şimal-Cənub nəqliyyat dəhlizinin orta xətti: Volqa-Xəzər-Fars körfəzi marşrutu regiona nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Son illərdə baş verən geosiyasi dəyişikliklər fonunda Avrasiyada yeni nəqliyyat və logistika dəhlizlərinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə Volqa-Xəzər-Fars körfəzi marşrutunun xüsusi yer tutduğu cənub marşrutu da region ölkələri üçün strateji əhəmiyyət kəsb edir. Bu marşrut region ölkələrinin Qlobal Cənub ölkələri ilə əlaqələrini gücləndirməyə imkan verir.***







Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çoxşaxəlidir. Bu dəhlizə Xəzərin həm şərq sahili ilə, həm də qərb sahili ilə quru yolu marşrutlarından əlavə dənizin özü ilə su marşrutu da daxildir. Hələlik su yolu ilə İranın Xəzərdəki limanlarına qədər getmək mümkündür, oradan isə yüklər quru yolu ilə Fars körfəzinə çatdırılır. Lakin Xəzərlə Fars körfəzi arasında kanal ideyası da var, lakin bu layihə çox çətin və bahalı olduğundan hələlik reallaşması üçün addımlar atılmayıb. Lakin bunsuz da bu dəhliz Hind okeanı ilə Xəzəryanı ölkələr arasında ən qısa və ən ucuz marşrut yoludur.

Volqa bölgəsindən başlayaraq Xəzər dənizi ilə və daha sonra Fars körfəzi limanlarına birləşdirən marşrutun yaradılması ideyası 2000-ci illərin əvvəllərində Rusiya, İran və Hindistan tərəfindən irəli sürülən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin inkişafı çərçivəsində yaranmışdır. 7200 kilometr uzunluğundakı bu dəhliz, Şimali Rusiya və Baltik limanlarını Xəzər dənizi və İran vasitəsilə Hind okeanı ilə birləşdirən Süveyş kanalına alternativ kimi düşünülmüşdür. Lakin uzun illər onun praktiki tətbiqi olduqca yavaş idi. 2022-ci ildən sonra Qərbin sanksiyaları Rusiyanı alternativ marşrutların tətbiqini sürətləndirməyə vadar etdi.

Yeni marşrutun konsepsiyası Volqanın liman terminallarından İranın Ənzəli və Əmirabad limanlarına, daha sonra isə Fars körfəzindəki Bəndər Abbas və Çabahar limanlarına birbaşa multimodal logistikanı nəzərdə tutur. Yeni logistika sxemi müxtəlif bölgələrdən yüklərin konsolidasiyasına, xərclərin azaldılmasına və İran və Hindistan limanlarına birbaşa çatdırılmanın təmin edilməsinə imkan verir. Bu marşrut üzrə daşımaların həcmi 2025-ci ilin sonuna qədər ildə 1 milyon tona, 2030-cu ilə qədər isə 3-3,5 milyon tona çatmalıdır. Bundan əlavə, layihə dərhal federal status aldı və onun inkişafı "Kiçik və Orta Sahibkarlıq" və "Beynəlxalq Əməkdaşlıq və İxrac" milli proqramları çərçivəsində başladı.




Planlara əsasən, marşrut aşağıdakı kimi fəaliyyət göstərəcək: Xəzər dənizinin Həştərxan, Mahaçqala və Olya limanlarına dəmir yolu ilə çatdırılma, ardınca İran, Türkmənistan və Azərbaycana dəniz xidməti, ardınca Fars körfəzinə avtomobil və dəmir yolu əlaqələri. Rusiya hissəsinin uzunluğu təxminən 2000 km, Ulyanovskdan Bəndər Abbasa qədər bütün zəncir isə təxminən 4500 km-dir. Süveyş kanalı vasitəsilə keçən marşrutla müqayisədə məsafə yarıdan çox, səyahət müddəti 2,5 dəfə qısadır (35 gün əvəzinə 12-15 gün) və xərc demək olar ki, ikiqat azalır. Bu arada, Hindistan və Yaxın Şərqdən gələn mallar- neft-kimya məhsulları, boyalar, tikinti materialları və əvvəllər Avropada alınmış elektrikimyəvi komponentlər- eyni dəhliz vasitəsilə əks istiqamətdə hərəkət edəcək.

Artıq 2024-cü ilin sentyabr ayında Ulyanovsk-Bakı-Astara marşrutu üzrə 3500 ton yük üçün nəzərdə tutulmuş 70 vaqonlu blok qatarının yola salınması üçün hazırlıqlar elan edilmişdi. Eyni zamanda, 2600 ton arpa daşıyan ilk çay-dəniz quru yük gəmisi Orta Volqanın liman terminallarından İranın Əmirabad limanına yola düşdü. Ümumilikdə, ötən il Ulyanovsk liman terminallarından Xəzər və Qara dəniz limanlarına kənd təsərrüfatı məhsulları daşıyan 57 quru yük gəmisi göndərilib. Bundan əlavə, Rusiya və Azərbaycan Dəmir Yolları Abşeron Logistika Mərkəzi ilə birgə təchizat zəncirlərinin davamlılığını təmin etmək üçün yük saxlama və yenidən bölüşdürmə sistemi yaradılıb. Bu, İrana tranzit müddətini 15 gündən 9 günə endirib.

Yük daşımalarının artması ilə yanaşı, genişmiqyaslı infrastruktur modernləşdirilməsinə də başlanılıb. Sonuncu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda Ulyanovskda çoxfunksiyalı liman kompleksinin tikintisi ilə bağlı müqavilə imzalanıb. Bu, qida məhsulları, taxıl, bitki yağları və kənd təsərrüfatı xammalının ixracı üçün logistika mərkəzinə çevriləcək. Birinci mərhələdə kompleksin yük daşıma qabiliyyəti ildə 700.000 ton olacaq və layihə Xəzər dənizinə və daha sonra Hind okeanına gedən ümumi marşrut sisteminə inteqrasiya olunacaq. Bundan əlavə, Həştərxana yaxınlaşan dəmir yolu hissələrinin modernləşdirilməsinə artıq başlanılıb ki, bu da dəhlizin tutumunu artıracaq.

Marşrutun inkişafında əsas mərhələ noyabr ayında Ulyanovskda "Orta Volqa-Xəzər" beynəlxalq forumunun keçirilməsi olub. Forumda Rusiya, İran, Azərbaycan, Türkmənistan və İraqdan olan nümayəndələr marşrut üçün vahid logistika operatoru yaratmaq barədə razılığa gəliblər. Bu struktur daşımaları əlaqələndirəcək, tarif siyasəti formalaşdıracaq, gəmi və konteyner donanmasını idarə edəcək, yüklər üçün sığorta və gömrük dəstəyini təşkil edəcək. Forumda qeyd edildiyi kimi, vahid operatorun və yeni donanmanın yaradılması siyasi dalğalanmalardan asılı olmayaraq davamlı nəqliyyat zəncirinin inkişafına imkan verəcək.

İki il ərzində "Orta Volqa-Xəzər-Fars körfəzi" marşrutu regional təşəbbüsdən beynəlxalq əməkdaşlıq formatına keçərək Xəzəri tədricən yeni Avrasiya logistikası üçün əsas mərkəzə çevirib. Azərbaycan, İran, Türkmənistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) artıq layihəyə maraqlarını ifadə ediblər. Bu ölkələrin hər biri burada həm iqtisadi, həm də siyasi üstünlüklər görür. İran üçün bu, ölkənin Avrasiya üçün tranzit mərkəzi kimi rolunun gücləndirilməsi, həmçinin Rusiya və Avrasiya İqtisadi İttifaqı ilə çoxtərəfli əlaqələrin genişləndirilməsi üçün fürsət deməkdir. Azərbaycan və Türkmənistan üçün bu, tranzit gəlirlərinin yeni mənbələrini və Avropa ilə Cənubi Asiyanı birləşdirən logistika şəbəkəsi vasitəsilə ticarəti artırmaq fürsətidir. Rusiya isə Süveyş kanalı və Bosfor boğazını keçməklə formalaşan xətlərə alternativ olan yeni təchizat kanalı əldə edir, ənənəvi marşrutlardan asılılığı və əlaqəli riskləri azaldır, eyni zamanda Qlobal Cənub ölkələri ilə əlaqələri gücləndirir.

Layihənin tam formalaşması üçün iştirakçıların hərəkətlərinin sinxronlaşdırılması və ölkələr arasında tarif və gömrük siyasətlərinin uyğunlaşdırılması zərurəti var. Bu çətinliklərin həlli üçün 2025-ci ildə Rusiya və İran elektron yük rəsmiləşdirmə sistemlərinin inteqrasiyası haqqında memorandum imzaladılar ki, bu da sərhəd rəsmiləşdirmə müddətini 5 gündən 1 günə endirəcək. İnfrastruktur layihələrinin maliyyələşdirilməsi və həyata keçirilməsi problemi də var, çünki dərinləşdirmə, gəmiqayırma və limanların yenidən qurulması əhəmiyyətli investisiya tələb edir. Bundan əlavə, son 30 ildə suyunun səviyyəsi təxminən 3 metr azalan Xəzər dənizinin təbii dayazlaşması da marşrut üçün ciddi çətinliklər yaradır. Təkcə 2025-ci ildə azalma 25 sm təşkil edib ki, bu da 5 illik rekorddur. Bu, naviqasiyanı çətinləşdirir və dərinləşdirmə xərclərini artırır. Rusiya Nəqliyyat Nazirliyinin məlumatına görə, təkcə Volqa-Xəzər kanalının dərinləşdirilməsinin dəyəri 5 milyard rublu keçib.

Bununla belə, mütəxəssislər layihənin faydalarının potensial xərclərdən xeyli çox olduğuna inanırlar. Rusiyalı ekspertlərin fikrincə, marşrutun inkişafı Rusiyada liman, nəqliyyat və anbar logistikası sahəsində on minlərlə əlavə iş yeri yarada bilər. Eyni zamanda, marşrut boyunca bütün ölkələrdə ticarət zəncirləri formalaşır və bu da bölgənin investisiya cəlbediciliyini artırır. Bundan əlavə, layihə Xəzərdə gəmiçiliyin dirçəlişinə töhfə verəcək və yerli gəmiqayırmanın inkişafını stimullaşdıracaq.

Ümumiyyətlə, Volqa-Xəzər dənizi-Fars körfəzi marşrutunun perspektivləri əksər ekspertlər tərəfindən son dərəcə müsbət qiymətləndirilir. Qısa müddətdə sabit yük dövriyyəsinin ildə 1-1,5 milyon tona çatacağı və 2030-cu ilə qədər trafik həcminin 5-6 milyon tona qədər artacağı, Hindistan, Pakistan və BƏƏ bazarlarına çıxışı ilə Şimal-Cənub Dəhlizinə tam inteqrasiya ediləcəyi gözlənilir. Nəticədə Xəzəryanı ölkələr üçün bu əlavə iqtisadi gəlirlər, daha ucuz və daha qısa ticarət yolu, tranzit gəlirləri deməkdir.

Azərbaycanın coğrafi mövqeyi Şərq və Qərb arasında, Şimal və Cənub arasında həm quru yollarla, həm də dəniz yolları ilə müxtəlif nəqliyyat dəhlizlərinin əsas mərkəzlərindən birinə çevrilməyə əsas verir. Bu marşrut vasitəsəli ilə isə biz şimal və cənub ölkələri arasında əsas mərkəzlərdən birinə çevrilə bilərik və hər iki istiqamətdə ticarəti artırmaq üçün əlavə imkanlar əldə edə biərik. Keçən yazımızda Xəzər və Qara dəniz artasında çəkilməsi nəzərdə tutulan yeni kanal haqda yazmışdıq. Həmin kanalın istifadəyə verilməsindən sonra isə biz Qara dəniz sahili Avropa ölkələrinə, həmçinin dünya okeanına daha rahat, daha tez və daha böyük həcmli gəmilərlə çıxmaq imkanı əldə edə bilərik. Bu iki nəqliyyat marşrutu birləşsə bu həm də Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat şəbəkələri arasında əsas mərkəzlərdən birinə çevriləcək və ölkəmiz də burada əsas qovşaqlardan biri olacaq.

Bu marşrutlar inteqrasiya olunsa və genişləndirilsə sərfəliliyi, qısalığı və rahatlığı cəhətdən daha üstün mövqeyə çıxa bilər və Avrasiya nəqliyyat sisteminin əsas komponentlərindən birinə çevrilə bilər. Nəticədə Hind okeanı- Qırmızı dəniz-Süveyş kanalı-Aralıq dənizi vasitəsilə daşımaların da əhəmiyyətli bir hissəsi bu marşruta yönələ bilər. Nəticədə Xəzər bölgəsində ticarət həcmi artar, iqtisadi aktivlik çoxalar və bütün region ölkələri bundan iqtisadi gəlirlər əldə edə bilər.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
13 noyabr
2025-ci il

# "İpoteka haqqında" qanun dəyişildi - hansı yeniliklər olacaq?



Prezident İlham Əliyev Milli Məclisin oktyabrın 31-də qəbul etdiyi "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. SİA xəbər verir ki, yenilənmiş qanuna əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi barədə müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması nəzərdə tutulur.

Sənədə görə, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq.

Həmçinin ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə dövlət rüsumunu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan ödəyəcək. İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsinin dövlət qeydiyyatı bu mexanizmin daha işlək olmasına və üstünlük hüququ olan ipoteka saxlayanın hüquqlarının daha səmərəli həyata keçirilməsinə xidmət edəcək. Yeni qanun nəticəsində ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması yolu ilə bu hüquqların dövlət reyestrində tanınması və təsdiq edilməsi təmin ediləcək.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Repetitorluq ləğv olunsa, uşaqlar yüksək nəticə göstərə biləcəkmi?

*EKSPERT AÇIQLADI*





Son vaxtlar Elm və Təhsil Nazirliyinin müəllimlərin maaşlarının iş saatına əsasən hesablanması ilə bağlı apardığı müzakirələr ictimaiyyətdə geniş rezonans doğurub. Bu qərarın əsas məqsədinin repetitorluq fəaliyyətini məhdudlaşdırmaq olduğu düşünülür. Lakin müəllimlərin dərs saatından sonra şagirdlərlə məşğul olması hələ də mümkün olacaq. Bəs bu dəyişiklik hazırlıq kurslarına və repetitorluğa necə təsir edəcək? Repetitorluq ləğv olunsa, uşaqlar yüksək nəticə göstərə biləcəkmi? Bu qərar şagirdlərin hazırlıq kurslarına marağını artıracaq? Sizcə, hazırlıq kursları bu vəziyyətdən faydalanacaq, yoxsa çətinlik çəkəcək?

Məsələ ilə bağlı təhsil eksperti Məzahir Məmmədli SİA-ya açıqlamasında bildirib ki, müəllim gün ərzində 8 saatını məktəbdə keçirirsə, o zaman həmin şagirdləri məktəbdə əlavə məşğələlərə cəlb etmək imkanı da yaranır:

"Sadəcə, bu təkliflə bağlı cəmiyyətdə müəyyən rezonans və fikir ayrılığı formalaşıb. Bəzi insanlar hesab edirlər ki, müəllimlər onsuz da məktəbdə kifayət qədər yüklənirlər və əlavə məşğələlər onların iş rejimini ağırlaşdıra bilər. Digərləri isə düşünürlər ki, bu addım repetitorluq fəaliyyətini daha şəffaf və nəzarət olunan bir müstəviyə gətirəcək. Hazırda bu məsələ Milli Məclisdə yalnız təklif səviyyəsində müzakirə olunur və hələlik onunla bağlı konkret qərar qəbul edilməyib. Əgər təklif qəbul olunsa, çox güman ki, repetitor kimi fəaliyyət göstərən müəllimlər məktəbdə tam ştat deyil, yarım ştat işləməyi seçəcəklər. Beləliklə, onlar həm məktəbdə rəsmi dərslərini keçir, həm də özəl tədris mərkəzlərində və ya kurslarda fəaliyyətlərini davam etdirə biləcəklər.

Düşünürəm ki, bu dəyişikliklərin həyata keçirilməsi halında, tədris kurslarının rolu və əhəmiyyəti daha da artacaq. Çünki repetitor müəllimlərin bir hissəsi öz fəaliyyətini məhz bu kurslar vasitəsilə quracaq. Kurslar isə həm şagirdlər üçün əlavə hazırlıq mühitinə çevriləcək, həm də təhsil sistemində qeyri-formal tədrisin keyfiyyətinə təsir göstərəcək. Nəticə etibarilə, bu məsələnin necə tənzimlənəcəyi və praktikada hansı nəticələrə gətirib çıxaracağı gələcəkdə qəbul olunacaq qərardan asılı olacaq".

***Arzu Qurbanlı***

## "Gənclər bu mənzərəni görərək, ailə institutuna qarşı inamı itirirlər"



"Müasir dövrdə ailə quran gənclərin əvvəlcədən müəyyən həyat və ailə təcrübəsi toplamaları, sonradan qurulan ailələrin daha sağlam və uzunömürlü olmasına müsbət təsir göstərir. Ailə qurmazdan əvvəl şəxsin özünü və qarşı tərəfi daha yaxşı tanıması, münasibətlərdəki potensial çətinliklərə qarşı hazırlıqlı olması, nəticədə həm ailə daxilində qarşılıqlı anlaşmanı artırır, həm də övlad tərbiyəsində daha düzgün yanaşmaların tətbiqinə səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. O bildirib ki, təəssüf ki, bəzi gənclər ailə qurarkən yalnız hiss və emosiyalara əsaslanaraq qərar verirlər: "Bu zaman qarşı tərəfi tam anlamadan, onunla birgə həyatın məsuliyyətini və çətinliklərini düşünmədən ailə qurmaq, sonradan ciddi narazılıqlara və nəticə etibarilə münasibətlərin pozulmasına səbəb olur. Digər tərəfdən, münasibətləri sırf maddi və ya praktiki nəticələr üzərində quran cütlüklər isə sevgi və anlayış çatışmazlığından əziyyət çəkə bilirlər.

Müasir gənclər arasında ailə qurmaq istəyinin gecikməsi və ya bu istəyə qarşı tərəddüd yaranması da müşahidə olunur. Bunun əsas səbəblərindən biri də artan boşanma halları, travmatik ailə təcrübələrinin çoxalması və sosial mühitin təsiridir. Gənclər bu mənzərəni görərək, ailə institutuna qarşı inamı itirirlər. Lakin sağlam bir ailə qurmaq üçün ilk addım fərdi olaraq münasibətlərə və ailə həyatına dair bilik və şüurun formalaşmasıdır. Gənc insan ailə həyatına dair ətrafındakı təcrübələrdən öyrənməli, eyni zamanda qarşı tərəflə ünsiyyətdə səmimi və açıq olmalıdır. Hər iki tərəf bir-birinin xarakterini qəbul etməyi və uyğunlaşmağı bacarmalıdır.

Övlad dünyaya gəldikdən sonra isə ailə daxilindəki münasibətlərin səviyyəsi birbaşa uşaq tərbiyəsinə təsir edir. Ailədəki anlaşılmazlıqlar, dominantlıq meyilləri, ya da uşaq üzərində yanlış cəza və ya mükafat mexanizmləri, onun şəxsiyyətinin formalaşmasında mənfi rol oynaya bilər. Bu baxımdan, uşaqlara qarşı fiziki yox, mənəvi tərbiyə və cəzalandırma metodları tətbiq edilməli, eyni zamanda onların yaxşı davranışları da mükafatlandırılmalıdır. Beləliklə, uşaqda sağlam davranış modeli formalaşar və bu da onun gələcək həyatına müsbət təsir edər".

***Səbinə Hüseynli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000